7. *Mammadov H. A., Hashimov A.M., Gurbanov E.J., Namazov M.B, Tabatabaei N M., Gurbanov K.B.* Investigation of breakdown processes in dense air gaps and their effect on the insulation of dischargers under the influence of short duration high-voltage pulses. 15th International Conference on "Technical and Physical Problems of Electrical Engineering TPE-2019, 14-15 October 2019, Rumeli University.
8. Istanbul, Turkey, Conference Proceedings, p.246-252.
9. *Gurbanov E.J., Mekhtizadeh R.N., Bondyakov A.S., Kazimov Sh.A.* The role of dielectric nozzle on X-radiation of runaway electrons during high voltage breakdown. The 7-th International conference on technical and physical problems of power engineering TPE-2011, Conference Proceedings, Lefkoşa, North Cyprus, p. 333-335.

SIX HAVADA NANOSANİYƏLİ QAZ BOŞALMASININ HƏYACANLANMASINA POTENSİAL ELEKTROD VƏ QAZ BOŞALMASI ARALIĞININ PARAMETRLƏRİNİN QARŞILIQLI TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

MƏMMƏDOV H.A., HƏŞİMOV A.M., QURBANOV E.C., NAMAZOV M.B., QURBANOV K.B.

Təqdim olunan məqalə six hava aralığında (1-4 atm.) naosaniyəli impuls qaz boşalmasının həyacanlanma prosesinə potensial elektrod və hava aralığının parametrlərin qarşılıqlı təsirinin öyrənilməsi, qaz boşalmasının həyacanlanma və formalaşma prosesinə və struktur parametrlərinə (qaz boşalması zonasının uzunluğu və eni) potensial elektrodun konstruksiyasında mövcud müxtəlif dielektrik başlıqların təsirinin, qısa müddətli yüksək impuls gərginliklərin təsirindən qabaq və sonra kiçik radiuslu elektrodun səthinin tədqiqatına həsr edilmişdir. Bu tədqiqatlar yüksək gərginlikli impuls avadanlığının ayrı ayrı komponentlərinin (yüksək təzyiqli qığılcım boşaldıcıları) təkmilləşdirilməsi, qısa impulsların stabil generasiyasının təminatı və impuls generatorların işlənilməsi zamanı daha effektiv cihazların yaradılması məqsədilə aparılır. Qaz boşalması aralığında ionlaşma proseslərinin koordinasiyası üçün potensial elektrodlarda dielektrik başlıqların istifadə olunan yeni modelləri təklif edilmişdir. Göstərilmişdir ki, dielektrik başlıqların vəziyyətinin bir birinə və potensial elektrodun-katodun ucluğuna qarşı 1-5 mm civarında dəyişməsi (hərəkəti) qaz boşalması zonasının genişlənməsi və həcmi nanosaniyəli qaz boşalmasının formalaşmasına səbəb olur. Müəyyən edilmişdir ki, elektrodlar arası məsafənin azaldılması impuls qaz boşalmasının katodun səthində mövcud olan mikroçıxıntılarda lokallaşmasına imkan yaradır.

Qeyd edilmişdir ki, potesial elektrodunun əyrilik radiusu artdıqca katodun səthindəki mikroçıxıntıların sayı artır və bu səbəbdən orada maksimal elektrik sahənin daha bərabər paylanması baş verir.

Açar sözlər: nanosaniyəli impuls qaz boşalması, sıx hava, potensial elektrod, dielektrik başlıq, elektrodlar arası məsafə, təzyiq, katodun səthi, mikroçıxıntılar, mikropartlayışlar, elektrodun əyrilik radiusu.

RESEARCH OF INTERACTION OF POTENTIAL ELECTRODE AND DISCHARGE GAP PARAMETERS ON EXCITING A NANOSECOND PULSE DISCHARGE IN DENSE AIR

MAMMADOV H.A., HASHIMOV A.M., GURBANOV E.J., NAMAZOV M.B., GURBANOV K.B.

This article is devoted to study of mutual influence of parameters potential electrode and discharge gap on excitation of nanosecond pulsed discharge in dense air (1-4 atm.), effect of various dielectric nozzles in design of potential electrode on excitation and formation of discharge, its structural parameters (length and width of discharge zone), state of electrode surface with a small radius of curvature before and after exposure to short duration high pulse voltage. These studies aimed at improving construction of individual components (high-pressure spark gaps) of high-voltage pulse devices in order to ensure stable generation of short pulses and create more efficient devices in development of pulse generators. New models of potential electrodes using dielectric nozzles that facilitate coordination of ionization processes in discharge gap are proposed. It is shown that change in position of dielectric nozzles relative to each other and the tip of potential electrode — cathode within 1–5 mm leads to expansion of discharge zone and formation of volume nanosecond discharge. It was found that decrease in interelectrode distance leads to contraction of pulsed discharge and its localization on mineral heterogeneities of cathode working surface. With an increase in radius of curvature of potential electrode, number of microinhomogeneities on cathode surface is increased, which contributes to a more uniform distribution of maximum field strength.

Keywords: nanosecond pulsed discharge, dense air, potential electrode, dielectric nozzle, interelectrode distance, pressure, cathode surface, microinhomogeneities, microexplosions, electrode curvature radius.

Pacs:42.55.Ye, 73.63.Fg, 87.64.Je

SPREY KOATİNQ ÜSULU İLƏ TƏBƏQƏNİN ÜZƏRİNƏ ÇÖKDÜRÜLMÜŞ KARBON NANOBORULARIN RAMAN ANALİZİ

[1]ABASZADƏ R.Q., [1]ASİMOV Ə.A., [1]MƏMMƏDOVA S.A., [1] ƏLƏKBƏROVR.İ., [1]ƏLİYEV O.Ə., [2]NƏBİYEV A.M., [3]ƏLİYEVE.M., [4]SƏFƏRƏLİYEV Ş.K., [5]KAPUŞ O.A.

[1]Azərbaycan MEA-nın H.M. Abdullayev adına Fizika İnstitutu, Az-1143, Bakı şəhəri H.Cavid pr. 131
[2]Bakı Dövlət Universiteti, Z.Xəlilov küç., 23, Bakı, 1048, Azərbaycan
[3]Helmholts-Centrum Polimer Araşdırmaları İnstitutu, Almaniya, Maks-Plank küç.1, 21502,Gestac şəhəri, Almaniya.
[4]Azərbaycan Dövlət Dəniz Akademiyası, Az1000, Bakı şəhəri, Z.Əliyeva küç., 18.
[5]Ukrayna Milli Elmlər Akademiyası, V.E.Laşkarov adına Yarımkeçiricilər Fizikası İnstitutu,Nauky pros.41, 02000, Kiev, Ukrayna.
abaszada@gmail.com, r.abaszada@physics.science.az

Təqdim olunan məqalə elektrik qövsü metodu ilə alınmış karbon nanoborunun və qadoliniumla aşqarlanmış karbon nanoborunun SiO_2 təbəqəsinin üzərinə sprey koatinq metodu ilə çökdürülmüş və raman analizinə baxılmışdır. Göstərilmişdir ki, tədqiq edilən metodun xüsusiyyətindən asılı olaraq karbon nanoboruların intensivlikləri və tezlikləri uyğun olaraq dəyişir.

Açar sözlər:karbon nanoboru, qadolinium, raman səpilməsi, sprey çökdürülmə metodu.

Giriş: Son illər aparılan tədqiqat işlərinin əksəriyyəti qrafen əsaslı materialların tədqiqinə həsr olunmuşdur. Belə ki, ilk dəfə olaraq yapon alimi İidjima tərəfindən karbonun boruşəkilli formada tədqiqi həyata keçirilmişdir [1]. Karbon nanoboruları mühüm mexaniki, optik və elektrik xassələrinə görə geniş tətbiq imkanlarına malikdirlər [2,3]. Karbon nanoboruları, özləri-nin geniş tətbiq sahələri ilə yanaşı, nanoelektronikada, molekulyar elektronikada, fotonikada, energetikada, tibbdə və elmin müxtəlif sahələrində geniş tətqiq olunur [4,5,6].

Qrafen əsaslı materialların tədqiqi əvvəlki illərlə müqayisədə daha da geniş vüsət almışdır [7]. Karbon nanoboruların alınması üçün ən çox istifadə olunan aerozol [8], elektrik qövsü [9], lazer ablyasiya [10], kimyəvi buxar çökdürülmə [11] metodları vardır. Nadir torpaq elementlərinin geniş tətbiq sahələri vardır. Radioelektronikada, cihazqayırmada, maşınqayırma-da, kimya sənayesində geniş tətbiq imkanlarına malikdirlər. Karbon nanoboruların raman səpilməsi spektrində ikiqat rezonans hadisəsinin təbiəti [12] və ikiqat rezonans pikinin müşahidə olunması kriteriyaları göstərilmişdir [13]. Nadir torpaq elementləri içərisində özünün fiziki xüsusiyyətlərinə görə fərqlənən qadolinium olduqca maraqlıdır. Bu baxımdan karbon nanoboru-ların qadoliniumla aşqarlanması həyata keçirilmişdir.

Təcrübi hissə. Karbon nanoboruların müxtəlif alınma metodları vardır. Bu metodlar içərisində elektrik qövsü (*arc* discharge) metodu özünəməxsusluğu ilə seçilir. Bizdə bu metoddan istifadə edərək karbon nanoboruları sintez etmişik [14,15]. Sintez edilmiş karbon nanoboruları funksionallaşdırılmış və daha sonra qadoliniumla aşqarlanmışdır [16].

Aşqarlanma prosesi növbəti mərhələdə həyata heçirilmişdir: 0,02 qram Gd_2S_3 ilə 0,08 qram (1-20% nisbətində) funksionallaşdırılmış karbon nanoboru (FCNTs) petri şüşəsində qarışdırılaraq 150 millilitrlik kolbaya daxil edilmişdir. Üzərinə 50 millilitr distillə suyu əlavə edilmiş, kolbadaki qarışıq əks soyuducu ilə təchiz olunmuş maqnit qarışdırıcıda 6 saat müddətində qarışdırılmışdır. Alınmış məhlul sprey metodundan istifadə edilərək

SiO_2təbəqəsinin üzərinə çökdürülmüşdür. Raman səpilməsi qrafen əsaslı materialların dioqnostika edilməsi üçün mühüm metod hesab olunur.

Raman səpilməsi spektrlərinin ölçülməsi Nanofinder 30 (Tokyo İnstr, Japan) konfokal raman mikrospektrometrində aparılmışdır. Həyəcanlandırıcı mənbə kimi 532nm dalğa uzunluğu və 10mVt olan maksimal gücə malik Nd:YAG lazerindən istifadə olunmuşdur. Bu zaman spektral ayıretmə qabiliyyəti $0,5sm^{-1}$ –dir. Detektor kimi (-70^0C) -ə qədər soyudulan və fonon hesabi rejimdə işləyən CCD kamerasından istifadə edilmişdir.

Nəticələr və onların müzakirəsi:



Şək.1. Sintez olunmuş karbon nanoborunun raman səpilməsi.



Şək.2. Bir qat sprey çökdürülmə metodu ilə alınmış karbon nanoborunun raman səpilməsi.



Şək.3. İki qat sprey çökdürülmə metodu ilə alınmış karbon nanoborunun raman səpilməsi.

Raman səpilməsi metodu müxtəlif həndəsi formaya malik karbon əsaslı nümunələrin diaqnostikası üçün əvəzolunmaz metodlardan hesab olunur. Şəkil 1 -də Raman analizinə əsasən D piki uyğun olaraq tezliyi 1338sm^{-1} -də intensivliyi isə 817 -də; G pikinintezliyi 1595sm^{-1}intensivliyi isə 703 -də, 2D piki tezliyi isə 2676sm^{-1}intensivliyi də uyğun olaraq 421 -də müşahidə olunmuşdur. Raman analizinin bu nəticələri göstərir ki, D pikinin intensivliyi, G pikinin intensivliyi ilə müqayisədə daha intensiv xarakter daşıyır. Qeyd etmək lazımdır ki, elektrik qövsü metodundan istifadə edərək yüksək keyfiyyətli karbon nanoborunun alınmış və raman analizi ilə təsdiq edilmişdir. Şəkil 2 -də sprey çökdürülmə metodundan istifadə edərək alınmış nümunənin SiO_2 təbəqəsinin üzərinə bir qat çökdürülməsi ilə Raman analizinə baxılmış və D piki uyğun olaraq tezliyi 1350sm^{-1} -də intensivliyi isə 1966 -da; G pikinintezliyi 1593sm^{-1}intensivliyi isə 1520 -də, 2D piki tezliyi isə 2673sm^{-1}intensivliyi də uyğun olaraq 841 -də müşahidə olunmuşdur. Şəkil 3 -də sprey çökdürülmə metodundan istifadə edərək alınmış nümunənin SiO_2 təbəqəsinin üzərinə iki qat çökdürülməsi ilə Raman analizinə baxılmış və D piki uyğun olaraq tezliyi 1350sm^{-1} -də intensivliyi isə 1819 -da; G pikinintezliyi 1594sm^{-1}intensivliyi isə 1425 -də, 2D piki tezliyi isə 2712sm^{-1}intensivliyi də uyğun olaraq 1000 -də müşahidə olunmuşdur. Şəkillərdən də göründüyü kimi bir qat ilə müqayisədə iki qat çökdürülmə metodu zamanı intensivliklərin kəskin dəyişdiyi müşahidə olunmuşdur.

1. *Iijima S.,* Synthesis of Carbon Nanotubes, Nature, 354, 1991, pp.56-58.
2. Loiseau A., Understanding Carbon Nanotubes, Lect. Notes Phys. 2006, vol.677, pp. 495-543.
3. *Reich S., Thomsen C., Maultzsch J.,* Carbon nanotubes, Basic Concepts and Physical Properties, WILEY-VCH Verlag GmbH & Co. KGaA, Weinheim,2004, pp. 31-115.
4. *Jorio A., Dresselhaus G., Dresselhaus M.S.,* Carbon Nanotubes, Advanced Topics in the Synthesis, Structure, Properties and Applications, Topics in Applied Physics, 2008, vol.111, p.720.
5. *Макунин А.В., Чеченин Н.Г.,* Синтез и свойства наноуглеродных структур: учебное пособие, М.: Университетская книга,2011, стр 150.
6. *O'Connell M.J.,* Carbon nanotubes: Properties and applications, 1st edition, CRC Press, 2006, p. 360.

7. *Zheng Li*, *Zheng Liu*, *Haiyan Sun*, *Chao Gao*,Superstructured Assembly of Nanocarbons: Fullerenes, Nanotubes, and Graphene, Chemical Reviews, 2015, №115, vol.15, pp.7046-7117.
8. *Nasibulin A.G., Moisala A., Brown D.P., Jiang H., Kauppinen E.I.,*A novel aerosol method for single walled carbon nanotube synthesis, Chemical Physics Letters, 402, 2005, pp.227–232.
9. *Journet C, Maser W.K. Bernier P., Loiseau A., Lamy de la Chapelle M., Lefrant S., Deniard P., Lee R., Fischer J.E.* Large-scale production of single-walled carbon nanotubes by the electric-arc technique, Nature, 1997, vol.388, pp.756-758.
10. *Krätschmer W., Lamb L.D., Fostiropoulos K., Huffman D.R.,* Solid C60: A New Form of Carbon, Nature, 1990, vol.347, pp.354-358.
11. *Kong J., Cassell A.M., Dai H.J.* Chemical vapor deposition of methane for single walled carbon nanotubes, Chem.Phys.Lett., 1998, vol.292, pp.567-574.
12. *Zhonghua Y., Louis B.,* Rayleigh and Raman Scattering from Individual Carbon Nanotube Bundles, J.Phys.Chem., B.105, 2001, pp.1123-1134.
13. *Thomsen C.,* Raman scattering in carbon nanotubes, Appl.Physics 108, (2007), pp.115–232.
14. *Ando Y., Zhao X.,* Synthesis of carbon nanotubes by arc-discharge method, New diamond and frontier carbon technology, 2006, vol.16, no.3, pp.122-137.
15. *Abaszadə R.Q., Məmmədova S.A., Ələkbərov R.İ., Nəbiyev A.M., Əliyev E.M., Səfərəliyev Ş.K., KapuşO.A.,* Karbon nanoboruların alınması və analizi, Azərbaycan Texniki Universitetinin Elmi Əsərləri, 2019, №3, səh.11-19.
16. *Abaszadə R.Q., Məmmədova S.A., Ələkbərov R.İ., O.Ə.Əliyev, Nəbiyev A.M., Əliyev E.M., KapuşO.A., Səfərəliyev Ş.K.,* Karbon nanoboruların funksionallaşdırılması və raman səpilməsi vasitəsi ilə analizi, 2019, vol. XXVII №4, section: Az, səh. 9-14.

РАМАН АНАЛИЗ УГЛЕРОДНЫХ НАНОТРУБОК НАНЕСЕННЫХ СПРЕЙ МЕТОДОМ НА ПОДЛОЖКУ

АБАСЗАДЕР.Г., АСИМОВА.А., МАМЕДОВАС.А., АЛЕКБЕРОВР.И., АЛИЕВ О.А., НАБИЕВА.М., АЛИЕВЕ.М., САФАРАЛИЕВШ.К., КАПУШ О.А.

Статья представляет собой исследование с помощью комбинационного рассеяния углеродных нанотрубок, получаемых дуговым методом, которые напылялись на слое SiO_2 с помощью спирей - метода. Показано, что интенсивности и частотыв спектрах напиленных углеродных нанотрубок существенно изменяются.

Ключевые слова: углеродные нанотрубки, гадолинии, комбинационное рассеяние, спирей метод.

RAMAN ANALYSIS OF CARBON NANOTUBESDEPOSİTED ON A SUBSTRATE BY SPRAY METHOD

ABASZADER.G., ASİMOVA.A., MAMADOVAS.A., ALAKBAROVR.İ., ALİYEVO.A., NABİEVA.M., ALİEVE.M., SAFARALİYEVSh.K., KAPUSHO.A.

The paper is a study using Raman scattering of carbon nanotubes obtained by the arc method, which were deposited on a SiO2 layer using the spray method. It was shown that the intensities and frequencies in the spectra of deposited carbon nanotubes significantly change.

Keywords: Carbon nanotubes, gadolinium, Raman scattering, spray coating method.

UOT 533.933

CİVƏ PLAZMASINDA İONLARIN PAYLANMA FUNKSİYASININ TƏYİNİ

HÜSEYNOV T.X., QƏRİBOV Q.İ., SƏFƏROV V.H., RƏSULOV E.A., ALLAHVERDİYEV Ş.A.

Bakı Dövlət Universiteti
htarlan@mail.ru

Civə buxarının qövs boşalması plazmasında ionların enerjilərə görə paylanma funksiyası təcrübi olaraq zond üsulu ilə tədqiq edilmiş və müəyyən edilmişdir ki, stasionar halda ionların paylanma funksiyası Maksvel paylanmasından kəskin fərqlənir. E/p nisbəti böyüdükcə, paylanma funksiyasının maksimumunun azalma sürəti ləngiyir. Bundan başqa, sərbəst qaçış yolunda ionların qazandıqları sürət, atomların istilik hərəkət sürətlərindən böyük olur və plazmada rezonans yükötürmə prosesi üstün rol oynayır.

Açar sözlər: qövs boşalması plazması, anizotrop plazma, ionların paylanma funksiyası, zond üsulu, plazmada yükdaşıyıcıların radial paylanması, cərəyanın modullaşdırılması, differensiallayıcı siqnal.

İonların iştirakı ilə baş verən plazmakimyəvi reaksiyaların öyrənilməsində, ionların yürüklüyünün təyin edilməsində, plazmadakı neytral komponentin qızması və s. proseslərdə ionların enerjilərə görə paylanma funksiyasının tədqiq edilməsi böyük maraq kəsb edir. Müasir dövrdə ən çox öyrənilən elm sahələrindən biri də plazma nanotexnologiyasıdır, belə ki, burada müxtəlif materialların səthinin plazma təsiri ilə təmizlənməsi, ion dəstəsi ilə səthin bombardman edilməsi yolu ilə səthin aşındırılması prosesləri həyata keçirilir [1].
İonların paylanma funksiyası (İPF) nəzəri olaraq tam öyrənilmişdir. Lakin arqon boşalmasında uzununa istiqamətdə ion spektral xətlərinin Dopler şürüşməsinin spektroskopik üsulla ölçmələrinin aparıldığı [2] işindən əlavə demək olar ki, digər təcrübi tədqiqatlar aparılmamışdır. Ona görə də bu sahədə yeni təcrübi tədqiqatların aparılması xüsusi maraq doğurur.

Təqdim olunan işdə sabit elektrik sahəsində civə buxarının qövs boşalması plazmasında ionların enerjilərə görə paylanması təcrübi olaraq öyrənilmişdir.

İPF-IN ÖLÇÜLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

İPF-i təyin etmək üçün zondun voltamper xarakteristikasının müsbət potensial hissəsindən istifadə edilir. Zond xarakteristikasının həmin hissəsində plazmadakı ionlar ləngidici elektrik sahəsində hərəkət edirlər. Bu halda, ionların enerjisi kiçik olduğuna görə, zondun müsbət potensialında müstəvi zonddakı elektron cərəyanı potensialdan asılı olmur və sabit qalır, müstəvi zonddakı elektron cərəyanının ikinci tərtib törəməsi isə sıfra bərabər olur. Göstərilən şərtlər daxilində ionlar tormozlayıcı elektrik sahəsində hərəkət etdiyindən, ion cərəyanının zamana görə ikinci tərtib törəməsi paylanma funksiyası haqqında tam məlumat daşıyır. Buna görə də, tədqiq etdiyimiz 0÷1 V potensial intervalında I_U'' ifadəsi ionların paylanma funksiyasını təsvir edir. I_U'' qeyd edilərkən, demodullaşma və fazaya görə detektəetmə texnikasının köməyi ilə boşalmada elektrik cərəyanının sabit qalmasına əsas diqqət yetirilir.

Aksial-simmetrik plazmada sferik koordinat sistemində simmetriya oxu istiqamətində ionların sürətlərə görə paylanma funksiyası azimutal bucaqdan asılı deyil:

$$F_{ia}(r,\mathrm{v}) = F_{ia}(r,V,\theta) \tag{1}$$

Burada $V = |\mathrm{v}|$, θ – polyar bucaqdır. Plazmadan zondun səthinə düşən ion cərəyanını ölçərkən fərz edirik ki, zondun potensial çəpərini keçən bütün ionlar zond tərəfindən udulur və onun səthindən ikici elektron emissiyası hadisəsi baş vermir:

$$I = qS\int V_n F_{ia}(\mathrm{v})d\mathrm{v} = \frac{2qS}{m^2}\int_0^{2\pi} d\phi' \int_{qU}^{\infty} \varepsilon d\varepsilon \int_0^{\theta'_{\max}} F_{ia}(\varepsilon,\theta',\phi')\cos\theta' \sin\theta' d\theta' . \qquad (2)$$

Burada V_n – sürət vektorunun zondun səthinə normal istiqamətdəki toplananı, $V_n = \upsilon cos\,\theta' \geq \upsilon_{min} = (2qU/m)^{1/2}$; m – ionun kütləsi, U – zondun müsbət potensialı, ε = $mv^2/2$, ϕ′, θ′ - uyğun olaraq, polyar oxu sferik koordinat sistemində olan v vektorunun azimutal və polyar bucaqlardır. (2) ifadəsini U-ə görə iki dəfə differensiallasaq:

$$I''_U = \frac{q^3 S}{m^2}\left[\int_0^{2\pi} F_{ia}(qU,\theta'=0,\phi')d\phi' - \int_0^{2\pi} d\phi' \int_{qU}^{\infty} \frac{\partial}{\partial(qU)} F_{ia}(\varepsilon\theta'_{\max},\phi')d\varepsilon\right]. \qquad (3)$$

(2) ifadəsində inteqral altında olan funksiya İPF-i təsvir etdiyi üçün (3)-də dekard koordinat sistemindən polyar koordinat siteminə keçək. Bu məqsədlə θ′-ı θ və ϕ′-ı isə α ilə əvəz edək (şəkil 1.):

$$\cos\theta = \cos\theta'\cos\alpha + \sin\theta'\sin\alpha\cos\phi',$$

Burada $\cos\theta' = \sqrt{\frac{qU}{\varepsilon}}\cos\alpha + \sqrt{1-\frac{qU}{\varepsilon}}\sin\alpha\cos\phi'$.



Şək.1. Məsələnin həndəsi təsviri: n – zondun səthinə yönəlmiş normaldır.

Onda:

$$I_U^{II}(qU,\alpha) = \frac{2\pi q^3 S}{m^2}\left[F_{ia}(qU,\alpha) - \frac{1}{2\pi}\int_0^{2\pi} d\phi' \int_{qU}^{\infty} \frac{\partial}{\partial(qU)} F_{ia}(\varepsilon,\theta^*)d\varepsilon\right] \qquad (4)$$

(4) tənliyi İPF-ı üçün axtardığımız inteqral tənliyi ifadə edir. Paylanma funksiyasının aşkar şəklini tapmaq üçün $F_{ia}(\varepsilon, \theta)$ və $I_U^{II}(qU, \alpha)$ funksiyalarını Lejandr həddlərinin cəmi şəklində sıraya ayıraq:

$$F_{ia}(\varepsilon, \theta) = \sum_{n=0}^{\infty} F_{ia}^n(\varepsilon) P^n(\cos\theta), \tag{5}$$

$$I_U^{II}(qU, \alpha) = \frac{2\pi q^3 S}{m^2} \sum_{n=0}^{\infty} F^n(qU) P^n(\cos\alpha). \tag{6}$$

Qeyd edək ki, Lejandr həddləri fiziki mənaya malik olub, onların köməyi ilə plazmanın parametrlərini tapmaq olur. Məsələn, f_0 həddi ionların konsentrasiyasını:

$$n = \frac{4\pi\sqrt{2}}{m^{3/2}} \int_0^{\infty} \sqrt{\varepsilon}\, f_0(\varepsilon) d\varepsilon$$

və f_1 həddi plazmada ion cərəyan sıxlığını:

$$f_1 = \frac{8\pi q}{3m^2} \int_0^{\infty} \varepsilon f_1(\varepsilon) d\varepsilon .$$

ifadə edirlər. (5) və (6) ifadələrini (4)-də nəzərə alsaq, F_{ia}^n ilə F^n arasında əlaqə yarada bilərik:

$$F_{ia}^n(qU) = F^n(qU) + \int_{qU}^{\infty} F_{ia}^n(\varepsilon) \frac{\partial}{\partial(qU)} P^n\left(\sqrt{\frac{qU}{\varepsilon}}\right) d\varepsilon . \tag{7}$$

Burada Lejandr həddləri haqqında

$$P^n(\cos\theta') = P^n(\cos\alpha) P^n\left(\sqrt{\frac{qU}{\varepsilon}}\right) + 2\sum_{k=1}^{n} \frac{(n-k)!}{(n+k)!} P_k^n(\cos\alpha) P_k^n\left(\sqrt{\frac{qU}{\varepsilon}}\right) \cos k\phi' .$$

toplama teoremindən istifadə edilmişdir.

(7) ifadəsi Volterin II növ inteqral tənliyi adlanır. Volter operatorundan istifadə edərək, F_{ia}^n-nı tapmaq olar:

$$F_{ia}^n(qU) = F^n(qU) + \int_{qU}^{\infty} F^n(\varepsilon) R^n(qU, \varepsilon) d\varepsilon . \tag{8}$$

Burada $R_j(qU, \varepsilon) = \frac{2 - (j+1)}{qU} \sum_{k=0}^{j/2} a_{kj} \left(\frac{\varepsilon}{qU}\right)^{\frac{j-2k-1}{2}}$, $a_{kj} = (-1)^k \frac{(2j-2k)!(j-2k)}{k!(j-k)!(j-2k)!}$, $j = 0, 2, 4\ldots$

$j = 0, 2, 4\ldots$ qiymətləri üçün həmin operatorun açıq şəkli:

$$R_0(qU, \varepsilon) = 0;$$

$$R_2(qU,\varepsilon)=\frac{3\varepsilon^{1/2}}{2u^{3/2}};$$

$$R_4(qU,\varepsilon)=\frac{5\varepsilon^{1/2}}{4u^{3/2}}\left(7\frac{\varepsilon}{u}-3\right);$$

$$R_6(qU,\varepsilon)=\frac{21\varepsilon^{1/2}}{16u^{3/2}}\left(33\left(\frac{\varepsilon}{u}\right)^2-30\frac{\varepsilon}{u}+5\right).$$

(8) ifadəsində *n*-ci komponent üçün (5)-i nəzərə alsaq:

$$F_{ia}^{n}(qU)=\frac{(2n+1)m^2}{4\pi q^3 S}\int_{-1}^{1}I_U''(qU,x)P^n(x)dx$$

və ya

$$F_{ia}^{n}(qU)=\frac{(2n+1)m^2}{4\pi q^3 S}\int_{-1}^{1}\left[I_U''(qU,x)+\int_{qU}^{\infty}I_U''(\varepsilon,x)R''(qU,\varepsilon)d\varepsilon\right]P^n(x)dx. \qquad (9)$$

tətbiq edilən üsul üçün əsas ifadəni alarıq. Burada $x=\cos\alpha$.

Nəticədə, (5) sırasında birinci üç həddüçün:

$$F_{ia}^{0}(qU)=\frac{m^2}{4\pi q^3 S}\int_{-1}^{1}I_U''(qU,x)dx,$$

$$F_{ia}^{1}(qU)=\frac{3m^2}{4\pi q^3 S}\int_{-1}^{1}\left[I_U''(qU,x)+\frac{1}{2qU}\int_{qU}^{\infty}I_U''(\varepsilon,x)d\varepsilon\right]xdx,$$

$$F_{ia}^{2}(qU)=\frac{5m^2}{8\pi q^3 S}\int_{-1}^{1}I_U''(qU,x)+\frac{3}{2(qU)^{3/2}}\int_{qU}^{\infty}\sqrt{\varepsilon}I_U''(\varepsilon,x)d\varepsilon\left](3x^2-1)dx.$$

Beləliklə, birtərəfli müstəvi zond üsulu ilə zondun müxtəlif mənfi potensiallarında $I_U^{II}(qU,\alpha)$ kəmiyyətini ölçüb, (5) və (9) ifadələrinə görə F_{ia}^{n} həddlərini və İPF-i hesablamaq olar. (9) tənliyi ixtiyari dərəcəli anizotrop plazma üçün ödənilir.

CİVƏ BUXARIBOŞALMASINDA İONLARINPAYLANMA FUNKSİYASININFORMALAŞMASI

Təcrübiqurğuvə zondunpotensialınagörə zondcərəyanınınikincitərtibtörəməsinin ölçülmə üsulu [5]-işində ətraflı verilmişdir.Həmin işdə istifadə edilən modullaşmış siqnalın riyazi ifadəsi:

$$U(t)=\Delta\varepsilon(1+\cos\omega_1 t)\cos\omega_2 t. \qquad (10)$$

şəklindədir.

Tətbiqedilən üsuldaapparatfunksiyası $|z|<2\sqrt{2}$ olduqda [82]:

$$A(z)=\frac{8}{\pi}\int\limits_{\frac{|z|}{2\sqrt{2}}}^{1}\left[\frac{u^2-\frac{z^2}{8}}{u}(1-u)\right]^{1/2}du \qquad (11)$$

və $|z|>2\sqrt{2}$ olduqdaisə

$$A(z)=0.$$

Burada $z=\frac{\sqrt{2(\varepsilon'-\varepsilon)}}{\Delta\varepsilon}$, Δε – differensiallayıcı siqnalın amplitudur.

Təcrübi işdə differensiallayıcı siqnalın optimal amplitude qiyməti seçilmiş (Δε) və qeydetmə sisteminin xəttiliyinə nəzarət edilmişdir. İstifadə edilən parametrlərin qiymətləri: Δε = 0,05; 0,1 və 0,2 *V*; $\omega_1 = 6\cdot10^3$ *Hs*; $\omega_2 = 6\cdot10^5$ *Hs* götürülmüşdür.

İPF-idəqiq ölçmək məqsədi ilə zond ölçmələrinə təsir edən bütün amillər hərtərəfli təhlil edilmişdir [4]. Ölçmələrdə buraxılan xətaları azaltmaq məqsədi ilə boşalma borusuna katoddan 20 və 25 *sm* uzaqlıqda olan iki müstəvi və sferik (diametric 0,3 *mm*) zondlar yerləşdirilmişdir. Zondlardan biri əsas, digəri isə köməkçi funksiyasını icraedir. Ölçmələr aparıldıqda, aparat funksiyasının xətasının [4], cüt-cüt toqquşmaların [6], zondun ölçüsünün, onun səthinin çirklənməsinin [3] və s. təsirləri nəzərə alınmışdır.

Ölçmələr civə buxarının 10^{-3} *Tor*, cərəyan sıxlığının j = 100 mA/sm^2, E/p = 400 *V/smTor*və neytral atomlarınT_a = 410 *K* temperature qiymətlərində (11) apparat funksiyasının köməyi ilə aparılmışdır.

Zondun mənfi potensial oblastlarında I_U'' kəmiyyəti elektronların sürətlərə görə paylanma funksiyası ilə mütənasib olan, zond cərəyanının electron hissəsindən təyin edilmişdir. Potensialın tədqiq olunan 0÷1 *V* oblastında I_U'' kəmiyyəti ionların paylanmasını təsviredir. I_U'' kəmiyyəti qeyd edilərkən, boşalmada electron cərəyanının stabil qalmasına əsas diqqət yetirilmişdir.

Aparılan ölçmələrdənməlum olmuşdur ki, elektronların temperature yüksəldikcə, ionların paylanma əyrisinin quyruq hissəsi yüksək enerjilər oblastına doğru genişlənir. Verilmiş temperaturda alınan paylanma funksiyaları Maksvel paylanmasından fərqlənir, paylanma əyrisində elektrik sahəsi ilə müəyyən olunan, atomların istilik hərəkətinin enerjisinə uyğun qiymətlərdə maksimum müşahidə edilir və həmin maksimum yüksək enerjilər oblastına doğru getdikcə, kiçilir. İonların paylanma əyrisindəki maksimumun kiçilməsinə səbəb, dəstədəki sürətli ionların öz enerjilərini dəstədən kənarda hərəkət edən yüklü zərrəciklərə ötürməsidir. Bundan başqa, differensiall ayıcı siqnalın qiyməti artdıqca, İPF-ın mütləq qiymətidə azalır və paylanma funksiyasının kəskin dəyişdiyi enerji oblastlarında həmin effect daha güclü müşahidə edilir. Təcrübi ölçmələrdən alınan həmin nəticə nəzəri hesablamalardan alınan nəticələrlə üst-üstə düşür. İonların enerjilərə görə paylanma funksiyasının formasını aşkar etmək üçüncivə buxarının qövs boşalması plazmasında aşağı təzyiqdə ($p = 10^{-3}$*Tor*) və $E/p \approx 400$ *V/sm Tor*-da bir tərəfi keçirici olan müstəvi zondun köməyi ilə $F_{ia}^{n} = f(\varepsilon)$asılılığı ölçülmüşdür (şəkil 2). Həmin şəkildən güründüyü kimi enerji artdıqca, İPF-ın anizotropluğu daha da yüksəlir. Buhalda ən böyük anizotropluq enerjinin kiçik ε = 0,05*eV* qiymətində müşahidə edilir. Buna səbəb ölçmələrin güclü elektrik sahələrində aparılmasıdır. Qeyd edək ki, Lejandr həddlərinin sıraya ayrılışına uyğun olaraq İPF-nın həmin şəkildə formalaşması realdır. İPF-da anizotropluq artdıqca, onu təsvir edən həddlərin sayı da artır. Bundan başqa, ionların enerjisi artdıqca, həddlərin sayı da artır, çünki İPF-ı anizotrop olur və ionlar radial istiqamətdə yaranaraq, paylanır. Yaranan ionlar tətbiq edilən xarici elektri ksahəsinin istiqamətində sürətlənərək hərəkət edirlər. Qeyd edək ki, baxdığımız civənin müsbəti onları halında, $E/p \approx 400$ *V/smTor* qiymətində, ionların enerjisi

0,1 *eV* olduqda, İPF-ın formasını aşkar etmək üçün, Lejandr həddləri sırasında 7 həddin olması kifayət etmir.



Şək.2. Civə buxarı plazmasında müstəvi zond üsuluilə ölçülmüş Hg^+ionların enerjiyə görə paylanma funksiyasının enerjidən asılılığı: cərəyan sıxlığı j = 100 mA/sm^2; təzyiq $p = 10^{-3}$ *Tor*; E/p = 400 *V/smTor*; nopmal atomların temperaturu isə T_a = 410 *K*. 1 – Δε = 0,1 *V*; 2 – Δε = 0,2 *V*; 3 –Δε = 0,05 *V*.

NƏTİCƏ

Şəkil 2-dən göründüyü kimi Δε – apparat funksiyası artdıqca, İPF-in forması və maksimumu dəyişmir. İonların enerjisi artdıqca, İPF-ın azalma sürəti ləngiyir. Paylanması izotropluğa və Maksvel paylanmasına yaxın olan İPF-ın maksimumu, yenicə yaranmış ionlar hesabına formalaşır. Həqiqətən də, yükötürmə prosesi yenicə yaranan ionların konsentrasiyanı formalaşdırır. Sürətli zərrəciklər dəstəsi misalı ilə bunu asanlıqla izah edə bilərik. Dəstədəki zərrəciklərin sürəti yüksək olduqca, dəstənin saxlanması üçün konsentrasiyanın qiyməti kiçik olur. Nəticədə, E/p nisbəti artanda, İPF-nın aşağı düşmə sürəti yavaşıyır. Odur ki, İPF, $\varepsilon_0 \approx E/p_0\sigma$ parametri ilə təyin olunur və verilmiş halda qiyməti, ionların sürətinin yüksək olduğu güclü elektrik sahələrində təyin edilir. Burada σ – rezonans yükötürmə prosesinin effektiv kəsiyidir. Həmin şəkildən güründüyü kimi bütün hallarda İPF, maksimuma malikdir.

Beləliklə, İPF-i təsvir etmək üçün Lejandr sırasında həddlərin sayını baxdığımız üsulla təyin edə bilərik.

---

1. *Ключарев А.Н., Мишшаков В.Г., Тимофеев Н.А.* Введение в физику низкотемпературной плазмы. М: СП6ГУ, 2008.
2. *Фриш С.Э., Каган Ю.М.* Спектроскопическое изучение движения ионов в плазме I.// ЖТФ, 1947. Т. 17, с. 577–584.
3. *Demidov V.I., Godyak V.A.* Probe measurements of electron-energy distributions in plasmas: what can we measure and how can we achieve reliable results? // J. Appl. Phys., 2011. Vol. 44. p. 233001.
4. *Мустафаев Ф.С., Грабовский А.* Зондовая диагностика анизотропной функции распределения электронов в плазме. // ТВТ, 2012. Т. 50, № 6. с. 841.
5. *Muradov A.Kh., Huseynov T. Kh.* Noiseless Gaseous Discharge in Conic Tube and its Dynamic Properties. // Radioelectronics and Communications Syistems, USA, 2010. Vol. 53**,** No9. p. 475–479.
6. *Verboncoeur J.P.* Particle simulation of plasmas: review and advances.//Plasma Phys. Control. Fusion., 2005. Vol. 47**.** A231 – A260.

ОПРЕДЕЛЕНИЕ ФУНКЦИИ РАСПРЕДЕЛЕНИЯ ИОНОВ В РТУТНОЙ ПЛАЗМЕ

**ГУСЕЙНОВ Т. Х., ГАРИБОВ Г. И.,
САФАРОВ В.Г., РАСУЛОВ Э.А., АЛЛАХВЕРДИЕВ Ш.А.**

Экспериментально исследована зондовым методом функция распределения ионов по энергиям в плазме дугового разряда в парах ртути, и выявлено, что в стационарном состоянии функция распределения ионов резко отличается от максвелловского распределения. С ростом отношения E/p скорость уменьшения максимума функции распределения снижается. Кроме этого, скорость, набранная ионами на длине свободного пробега, становится больше скорости теплового движения атомов, и в плазме преобладающую роль играет процесс резонансной перезарядки.

Ключевые слова: плазма дугового разряда, анизотропная плазма, функция распределения ионов, зондовый метод, радиальное распределение носителей заряда в плазме, модуляция тока, дифференцирующий сигнал.

DETERMINATION OF THE DISTRIBUTION FUNCTIONS OF IONS IN THE MERCURY PLASMA

**HUSEYNOV T.Kh., QARIBOV Q.I.,
SAFAROV V.H., RASULOV E.A., ALLAKHVERDIYEV Sh.A.**

The energy distribution function of ions in the arc discharge plasma of the mercury steam was investigated by the prob method and it was found that distribution function of the ions differs from Maxwell distrubution sharply. With the increasing E/p ratio decreasing speed of maximum of distribution function is delays. Furthermore, the velocity of the particles during free path is higher than thermal velocity of atoms and the resonans charge-transfer processes play a major role in plasma.

Key words: arc discharge plasma, anisotropic plasma, distribution function of ions, prob method, radial distribution of charge carried in plasma, modulation of current, differentiating signal.

SULU MƏHLULLARDA MİS–GERMANİUM SULFİDLƏRİNİN ƏMƏLƏGƏLMƏ ŞƏRAİTİNİN TƏDQİQİ

HÜSEYNOV Q.M., KAZIMOV M.H., RZAYEVA A.B.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutu
qorxmazhuseynli@rambler.ru

Məqalədə Cu^{+}–Ge^{4+}–S^{2-} sistemində ion tarazlığının analizinə əsasən Cu_2S və GeS_2 birləşmələrinin və onlar əsasında üçlü tiobirləşmələrin hidrokimyəvi çökdürülmə şəraitinin termodinamik hesablamalarının nəticələri verilmişdir. Bu nəticələr müvafiq sulfidlərin çökdürülməsi üçün reaksiya qarışığının tərkibini müəyyən etməyə imkan vermişdir. Hidroksid, trilon B və çaxır turşusu məhlullarında mühitin pH-dan asılı olaraq Ge^{4+}, Cu^{+} ionlarının və onun kompleks formalarının qatılıqları təyin edilmiş, qatılıq payının pH-dan asılı olaraq dəyişməsi hesablanmış və α–pH qrafik asılılığı qurulmuşdur. $pC_b - f(pH)$ diaqramları qurulmuş, hidroksid, trilon B və çaxır turşusu mühitlərindəbərk fazalarının alınma şəraitinin sərhədləri dəqiqləşdirilmişdir. Alınmış nəticələr əsasında təcrübi olaraq 70^0 və 100^0C-də Cu_2GeS_3, Cu_4GeS_4 və Cu_8GeS_6 birləşmələrinin nanotəbəqələri alınmış və onların mikromorfologiyası öyrənilmişdir.

Açar sözlər: mis(I) tiogermanat, ion tarazlığı, hidrokimyəvi çökdürmə, alınma şəraiti, termodinamik hesablama, qrafik, bərk faza.

Mis(I) tiogermanatlar müasir texnikanın mühüm funksional materialları sırasına daxildir. Bu sinif birləşmələr (Cu_2GeS_3, Cu_4GeS_4 və Cu_8GeS_6) perspektivli yarımkeçirici, foto-, seqneto- və termoelektrik xassəli materiallar kimi istifadə olunur və ya tətbiq üçün əhəmiyyətli hesab edilir [1, 4, 6, 8-12]. Cu–Ge–S sisteminin Cu_2S–GeS_2 politermik kəsiyində Cu_2GeS_3, Cu_4GeS_4 və Cu_8GeS_6 tərkibli birləşmələr alındığı məlumdur[8, 11, 12]. Bunlardan Cu_2GeS_3 və Cu_8GeS_6 birləşmələrində yaxşı yarımkeçirici xassələr müşahidə edilmişdir [6]. Qeyd olunan birləşmələr yüksək temperaturda (927-977^0C və ya 1200-1250 K) elementar komponentləri və ya germanium(IV) sulfid və mis(I) sulfidi vakuumlaşdırılmış (~10^{-2} Pa) kvars ampullarda birgə əritməklə alınır [1, 9-12]. Bu birləşmələrin homogenləşməsi üçün yüksək temperatur (850-920^0C) və uzun vaxt (2-5 gün) tələb olunur. Buna görə də bir çox ikili və üçlü tiobirləşmələrin alınmasında daha perspektivli metod hidrokimyəvi çökdürmə hesab edilir [5, 7]. Hidrokimyəvi metod istifadə olunan qurğuların sadəliyi və sintez şəraitinin asan nizamlanması ilə fərqlənir. Hidrokimyəvi çökdürmə zamanı altlıq üzərində müxtəlif təbiətli, xassəli və formalı təbəqələr alınır. Adətən, hidrokimyəvi çökdürmə ilə alınan nazik təbəqələrdə maddələrin nanoölçülü hissəcikləri formalaşır [7]. Bu baxımdan, mis(I) tiogermanatların sulu məhlullardan hidrokimyəvi çökdürmə metodu ilə alınması və onların xassələrinin öyrənilməsi aktual məsələlərdən biridir.

Məqalədə Cu^{+}–Ge^{4+}–S^{2-} sistemində ion tarazlığının analizinə əsasən Cu_2S və GeS_2 birləşmələrinin alınma şəraitinin termodinamik hesablamalarının nəticələri verilmişdir. Bu nəticələr müvafiq sulfidlərin çökdürülməsi üçün reaksiya qarışığının tərkibini müəyyən etməyə imkan vermişdir.

Metalın sulfid fazasının əmələgəlmə şəraitinin sərhədlərinin hesablanması üçün əvvəlcə sulfidləşdirici reagent kimi istifadə olunan tioamidlərin parçalanmasını nəzərdən keçirək. Hidrokimyəvi çökdürmə prosesinin əsasını bir sıra reaksiyalar təşkil edir: tioamidin parçalanması, hidrogen-sulfidin ionlaşması və sulfid ionlarının meral ionları ilə qarşılıqlı təsiri [7].

İlkin təcrübi nəticələrə əsasən Cu_2S, GeS_2 və Cu_2S–GeS_2 təbəqələrinin alınması üçün dörd sulu məhluldan ($H[CuCl_2]$, $GeCl_4$, trilon B və çaxır turşusu) istifadə edilmişdir.

Cu_2S və GeS_2 birləşmələrinin tiokarbamid ($CS(NH_2)_2$) və tioasetamidlə (CH_3CSNH_2) çökdürülməsi zamanı baş verən reaksiya tənliklərini aşağıdakı kimi yazmaq olar:

$$CuL_x^+ + CS(NH_2)_2 + OH^- \rightarrow Cu_2S\downarrow + xL + CN_2^{2-} + H_2O;$$
$$CuL_x^+ + CH_3CSNH_2 + OH^- \rightarrow Cu_2S\downarrow + CH_3COONH_4 + xL;$$
$$GeL_x^{4+} + CS(NH_2)_2 + OH^- \rightarrow GeS_2\downarrow + xL + CN_2^{2-} + H_2O;$$
$$GeL_x^{4+} + CH_3CSNH_2 + OH^- \rightarrow GeS_2\downarrow + CH_3COONH_4 + xL.$$

Metal duzlarının minimum miqdarına əsasən müvafiq sulfidlərin əmələgəlmə şəraitinin sərhədləri müəyyən edilmişdir. Belə ki, sulfid fazalarının əmələ gəlməsi prosesin başlanğıcı hesab edilir. Çox duru məhlullarda az həll olan birləşmələr üçün metal və sulfid ionlarının aktivliyi vahidə bərabərdir. Belə halda əmələ gələn bərk fazanın başlanğıc ölçüsü (Δ_b) miqdarı olaraq mərkəzlərin ölçüsünü ifadə edir. Mərkəzlərin ölçüsünü müəyyən etmək üçün aşağıdakı bərabərlikdən istifadə edilmişdir:

$$HH_{GeS_2}.\Delta_b = \left[Ge^{4+}\right]_b \cdot \left[S^{2-}\right]_b^2 = \left[Ge^{4+}\right]_t \cdot \left[S^{2-}\right]_t^2 = \dot{I}H_{GeS_2},$$

burada HH_{GeS_2} – germanium-sulfidin həllolma hasili; $\dot{I}H_{GeS_2}$ – germanium-sulfidin ion hasili; $\left[Ge^{4+}\right]_b$, $\left[S^{2-}\right]_b^2$, $\left[Ge^{4+}\right]_t$ və $\left[S^{2-}\right]_t^2$ isə müvafiq olaraq germanium və kükürd ionlarının başlanğıc və tarazlıq qatılıqlarıdır.

Sistemdə kompleks əmələgəlməni nəzərə alaraq Ge^{4+} ionlarının miqdarı ion tarazlığının analizinə əsasən hesablanmışdır:

$$\left[Ge^{4+}\right] = \alpha_{Ge^{4+}} \cdot C_{Ge},$$

burada $\alpha_{Ge^{4+}}$ – reaksiyaya daxil olan Ge^{4+} ionlarının qatılıq payı; C_{Ge} – məhlulda olan Ge^{4+} ionlarının ümumi qatılığıdır.

$\alpha_{Ge^{4+}}$ qatılıq payını hesablamaq üçün 298 K-də sistemdə əmələ gələn komplekslərin davamsızlıq sabitlərinin qiymətlərindən istifadə edilmişdir:

$$\alpha_{Ge^{4+}} = \frac{1}{1 + \frac{[L_1]}{K_1} + \frac{[L_1]^2}{K_{1,2}} + \cdots \frac{[L_1]^n}{K_{1,2\ldots n}} + \frac{[L_1]}{K_{n+1}} + \frac{[L_2]}{K_{n+2}}},$$

burada L_1 və L_2 – liqandların qatılığıdır.

Tiokarbamidin və tioasetamidin parçalanması aşağıdakı reaksiya tənlikləri üzrə baş verir:

$$CS(NH_2)_2 \leftrightarrow H_2S + H_2CN_2;$$

$$CH_3CSNH_2 \leftrightarrow CH_3COONH_4 + H_2S.$$

Buradan tiokarbamidin parçalanma reaksiyasının tarazlıq sabitini aşağıdakı kimi hesablanmışdır:

$$K_p = \frac{\left[H_2S\right]_t \cdot \left[H_2CN_2\right]_t}{\left[CS(NH_2)_2\right]_t} = \frac{\left[S^{2-}\right]_t \cdot \left[CN_2^{2-}\right]_t \cdot \left[H_3O^+\right]^4}{\left[CS(NH_2)_2\right]_t \cdot k_{H_2S} \cdot k_{H_2CN_2}},$$

burada k_{H_2S} və $k_{H_2CN_2}$ – hidrogen-sulfidin və sianamidin ionlaşma sabitidir; $\left[CN_2^{2-}\right]_t$, $\left[H_3O^+\right]_t$ və $\left[CS(NH_2)_2\right]_t$ – isə müvafiq ionların tarazlıq qatılığıdır.

Tioasetamidin parçalanma reaksiyasının tarazlıq sabitini aşağıdakı kimi hesablanmışdır:

$$K_p = \frac{\left[H_2S\right]_t \cdot \left[CH_3COONH_4\right]_t}{\left[CH_3CSNH_2\right]_t} = \frac{\left[S^{2-}\right]_t \cdot \left[H_3O^+\right]^2}{\left[CH_3CSNH_2\right]_t \cdot k_{H_2S} \cdot k_{H_2CN_2}},$$

burada $\left[CH_3CSNH_2\right]_t$ – tioasetamidin tarazlıq qatılığıdır.

pH-dan və germanium duzunun minimum qatılığından asılı olaraq tiokarbamid və tioasetamidlə çökən sulfidin əmələgəlmə sərhədini təyin etmək üçün aşağıdakı bərabərliklərdən istifadə edilmişdir:

$$pC_b = \frac{1}{2} pHH_{GeS_2} - p\alpha_{Ge^{4+}} - \frac{3}{2}(pk_{H_2S} - pH_b + \frac{1}{2} pK_p + \frac{1}{2} p(CS(NH_2)_2) + \frac{1}{2} p\frac{\beta_c}{\beta_s}) - \frac{2\sigma V_M}{2{,}3RTr_b}; \quad (1)$$

$$pC_b = \frac{1}{2} pHH_{GeS_2} - p\alpha_{Ge^{4+}} - \frac{3}{2}(pk_{H_2S} - pH_b + \frac{1}{2} pK_p + \frac{1}{2} p(CH_3CSNH_2) + \frac{1}{2} p\frac{\beta_c}{\beta_s}) - \frac{2\sigma V_M}{2{,}3RTr_b} \quad (2)$$

Burada p – mənfi onluq loqarifmanın göstəricisi; C_b – bərk fazanın əmələ gəlməsi üçün kifayət edən metal duzunun minimum miqdarı; σ – xüsusi səth enerjisi (C/m^2); V_M – molyar həcm; r_b – mərkəzlərin radiusu (m); R – universal qaz sabiti; T – prosesin temperaturu (K); β_s və β_c – sabit kəmiyyətlərdir. Sabit kəmiyyətlər aşağıdakı bərabərliklərlə təyin edilmişdir:

$$\beta_s = \left[H_3O^+\right]^2 + k_{HS^-} \cdot \left[H_3O^+\right] + k_{H_2S};$$

$$\beta_c = \left[H_3O^+\right]^2 + k_{HCN_2^-} \cdot \left[H_3O^+\right] + k_{H_2CN_2},$$

burada k_{HS^-} və $k_{HCN_2^-}$ – hidrogen-sulfidin və sianamidin birinci mərhələ üzrə ionlaşma sabitidir.

(1) və (2) bərabərlikləri qatılaşmanın böhran nöqtəsi üçün Tomsan-Osvald bərabərliyini xarakterizə edir. Bu bərabərliklərlə ilkin və son mərkəzlərin ölçüsünü təyin etmək mümkündür. Sulfidlərin alınmasının nəzəri və təcrübi nəticələrinə əsasən məlum olmuşdur ki, GeS_2-nin alınması heterogen mexanizm üzrə gedir. Xalkogenid məkəzlərinin böhran radiusu (r_b) $(3{,}2\text{-}3{,}8)\cdot 10^{-9}$ m aralığında olur. GeS_2 üçün əmələgəlmə sərhədinin hesablanmasında $\sigma = 1{,}5 \ \ C/m^2$ və $r_b = 3{,}5 \cdot 10^{-9} m$ götürülmüşdür [2, 3].

(1) və (2) bərabərlikləri üzrə aparılan hesablamaların nəticələri əsasında $pC_b - f(pH)$ qrafik asılılığı qurulmuşdur. Fikrimizcə bu asılılıq GeS_2 bərk fazasının əmələgəlmə şəraitinin sərhədlərini tam ifadə edir. Oxşar qaydada Cu_2S, $Ge(OH)_4$ birləşmələrinin əmələgəlmə şəraitinin sərhədləri təyin edilmişdir. Prosesin ilkin mərhələsində hidroksid fazası sulfid fazasının nüvəsində, həmçinin təbəqədə qarışıq şəklində ola bilər. $Ge(OH)_4$ birləşməsinin əmələgəlmə şəraitinin sərhədləri aşağıdakı kimi təyin edilmişdir:

$$HH_{Ge(OH)_4} = \left[Ge^{4+}\right] \cdot \left[OH^-\right]^4.$$

Bu bərabərlikdə suyun ionlaşma sabitini (K_V) nəzərə aldıqda aşağıdakı şəkildə yazmaq olar:

$$HH_{Ge(OH)_4} = \frac{K_V^4}{\left[H_3O^+\right]^4} \cdot \alpha_{Ge^{4+}} \cdot C_{Ge}.$$

Bu bərabərliyi loqarfmalasaq alarıq:

$$pC_b = HH_{Ge(OH)_4} - \alpha_{Ge^{4+}} - 4pK_V + 4pH\ .$$

Qrafikləri qurmaq üçün sonuncu hesablamalarda hidroksid, trilonat və çaxır turşusu sistemlərində mühitin pH-dan asılı olaraq Ge^{4+} və onun kompleks formalarının qatılıqları təyin edilmişdir. Hidroksid, trilonat (trilon B=0,1 mol/l) və çaxır turşusu (tartrat=0,05 mol/l) sistemlərində mövcud olan germanium komplekslərinin qatılıq payının pH-dan asılı olaraq dəyişməsi hesablanmış və qrafik qurulmuşdur (şək. 1).



Şək.1. Trilonat (*a*), hidroksid (*b*) və çaxir turşulu (*c*) sistemində germaniumun ion və molekulyar formalarının qatılıq payının pH-dan asılılığı.

Qrafiklərin analizindən məlum olur ki, germanium(IV) sulfid fazasının əmələ gəlməsi prosesi liqandların növü və qatılığından asılı olaraq dəyişir. Hidroksid sistemindən fərqli olaraq trilonat və çaxır turşusu sistemlərində bərk sulfid fazasının əmələgəlməsi yavaş gedir. (1) və (2) tənliklərindən istifadə edərək GeS_2 birləşməsinin hidrokimyəvi çökdürülmə şəraiti hesablanmışdır. Hesablamalarda istifadə olunan məhlulların qatılıqları nəzərə alınmışdır: $[CS(NH_2)_2]$=0,5 mol/l; $[CH_3CSNH_2]$=0,2 mol/l; $[C_6H_6O_4]$=0,4 mol/l; Trilon B=0,1 mol/l.

$pC_b - f(pH)$ qrafik asılılığını qurmaq üçün (1) və (2) tənliklərində istifadə olunan termodinamik kəmiyyət və sabitlər aşağıdakı kimi olmuşdur:

$$pK_c(TK) = 22{,}48;\ pK_c(TAA) = 6{,}0;\ pK_V = 14;\ pk_{H_2S} = 19{,}88;$$
$$pk_{HS^-} = 6{,}99;\ pHH_{GeS_2} = 74{,}5;\ pHH_{Ge(OH)_4} = 32{,}9\ [3].$$

Bu parametrlər əsasında aparılan hesablamalar qrafik olaraq GeS_2 və $Ge(OH)_4$ birləşmələrinin əmələgəlmə sahələrini təyin etməyə imkan vermişdir (şək. 2).

Üçlü sulfidləri çökmə sərhədlərini təyin etmək üçün Cu_2S və $Cu(OH)_2$ birləşmələrinin hidrokimyəvi çökdürülmə şəraiti hesablanmışdır. Bu hesablamalarda misin əsas komplekslərinin davamsızlıq sabitlərinin qiymətlərindən istifadə edilmişdir (cədv.).



Şək. 2. Hidroksid (a), trilonat (b) və çaxır turşulu (c) sistemlərdə GeS_2 və $Ge(OH)_4$ bərk fazalarının alınma şəraitinin sərhədləri: 1 – GeS_2; 2 – $Ge(OH)_4$.



Şək.3. Hidroksid (a), trilon B (b) və çaxır turşulu (c) məhlullarda $H[CuCl_2]$–$GeCl_4$–$CS(NH_2)_2(CH_3CSNH_2)$ sistemlərindəbərk fazalarının alınma şəraitinin sərhədləri.



Şək.4. 70^0C və 100^0C-də alınmış Cu_2GeS_3, Cu_4GeS_4 və Cu_8GeS_6 birləşmələrinin SEM şəkilləri.

Cədvəl

Misin əsas komplekslərinin davamsızlıq sabitləri (pk_b) [3]

$CuOH$	$CuOH^+$	$Cu(OH)_2$	$Cu(OH)_3^-$	$Cu(OH)_4^{2-}$	CuY^{2-}
14,7	7,0	13,68	17,0	18,5	18,8

Bundan əlavə hesablamalarda ədəbiyyatda [2, 3] verilmiş aşağıdakı kəmiyyətlərin qiymətlərindən istifadə edilmişdir:

$$pHH_{Cu_2S} = 60{,}6;\ pHH_{Cu(OH)_2} = 19{,}66;\ V_M^{Cu_2S} = 28{,}4\cdot 10^{-6}\,C/m^2;$$
$$\sigma = 1{,}5C/m^2;\ r_b = 3{,}5\cdot 10^{-9}\,m;\ T = 298K.$$

Yuxarıda qeyd olunan nəticələr əsasında hidrokimyəvi çökdürmə metodu vasitəsilə Cu–Ge–S sistemində mövcud olan üçlü birləşmələrin (Cu_2GeS_3, Cu_8GeS_6 və Cu_4GeS_4) və onlar əsasında əmələ gələn dəyişkən tərkibli fazaların çökdürülmə şəraiti təyin edilmişdir. $pC_b - f(pH)$ diaqramları qurulmuş, Cu_2S və GeS_2 birləşmələrinin birgə çökmə şəraiti müəyyənləşdirilmişdir. Hidroksid, trilon B və çaxır turşusu mühitlərində $H[CuCl_2]$–$GeCl_4$–$CS(NH_2)_2(CH_3CSNH_2)$ sistemlərindəbərk fazalarının alınma şəraitinin sərhədləri dəqiqləşdirilmişdir (şək. 3).

Şəkil 3, a-dan göründüyü kimi hidroksid sistemində Cu_2S və GeS_2 birləşmələrinin birgə çökmə sahəsi (ştrixlənmiş) pH=1-6 aralığında müşahidə olunur. pH=3-5,3 aralığında alınan sulfid fazaları içərisində $Ge(OH)_4$ fazası, pH=5,3-6 aralığında isə $Cu(OH)_2$ fazası mövcud olur. pH>6 olduqda Cu_2S fazasının tərkibində $Ge(OH)_4$ və $Cu(OH)_2$ qarışığı olur.

Trilon B məhlulunda $H[CuCl_2]$–$GeCl_4$–$CS(NH_2)_2(CH_3CSNH_2)$ sistemlərində(şək. 3, b) Cu_2S və GeS_2 birləşmələrinin birgə çökmə sahəsi pH=10,2-13,1 aralığında müşahidə olunur. Bunun səbəbi mis və germaniumun trilon B ilə əmələ gətirdiyi xelat tipli komplekslərin davamsızlıq sabitlərinin qiymətlərinin yüksək olmasıdır.

Çaxır turşusu məhlulunda Cu_2S və GeS_2 birləşmələri fərdi şəkildə pH=4,3-5,8 aralığında çökür(şək. 3, c). pH=5,8-6,1 aralığında sulfid fazalarının tərkibində $Ge(OH)_4$, pH=6,1-11,5 aralığında $Ge(OH)_4$+$Cu(OH)_2$ fazaları olur. pH>11,5 olduqda isə tərkibində $Ge(OH)_4$+$Cu(OH)_2$ fazaları olan Cu_2S birləşməsi alınır.

$pC_b - f(pH)$ diaqramları əsasında təcrübi olaraq 70^0 və 100^0C-də Cu_2GeS_3, Cu_4GeS_4 və Cu_8GeS_6 birləşmələrinin nanotəbəqələri alınmışdır (şək. 4). Təcrübi nəticələr nəzəri hesablamaların nəticələri ilə yaxşı uyğun gəlmişdir.

Müəyyən edilmişdir ki, 100^0C-də birləşmələr daha yüksək çıxıma malik olur. NaOH məhlulunda birləşmələrin çıxımı 97,4-98,3%, trilon B məhlulunda 78,9-81,7%, çaxır turşusu məhlulunda isə 79,01-87,19% aralığında olur.

Ümumiyyətlə, alınan nəticələrdən məlum olur ki, Cu_2S və GeS_2 birləşmələrinin fərdi şəkildə birgə çökməsini təmin etmək üçün ilkin komponentlərin, kompleks əmələgətiricilərin (NaOH, trilon B və çaxır turşusu) miqdarını və mühitin pH-nı dəqiq seçmək lazımdır. Digər tərəfdən, fazaların çökdürülmə müddəti və formalaşması temperaturdan asılıdır.

---

1. *Бабанлы М.Б., Юсибов Ю.А., Абишев В.Т.* Трехкомпонентные халькогениды на основе меди и серебра. Баку: БГУ, 1993, с. 342.
2. *Волков А.И., Жарский И.М.* Большой химический справочник. Мн.: «Современная школа» 2005, с.608.
3. *Лурье Ю.Ю.* Справочник по аналитической химии. М.: Химия, 1989, с. 448.
4. *Марушко Л. П., Пискач Л. В., Парасюк О. В., Олексеюк І. Д., Пехньо В. І.* Фазовые равновесия в системе Cu_2GeS_3–Cu_2GeSe_3. Научный вестник Волынского национального университета имени Леси Украинский, 2008, с. 11-16.
5. *Марков В.Ф., Маскаева Л.Н.* Особенности формирования пленок сульфидов металлов из водных растворов. // Бутлеровские сообщения, г. Казань, 2011, Т.24, №2, с. 42-50.
6. *Палатник Л. С., Комник Ю. Ф., Белова Е. К., Атрощенко Л. В.* Исследование тройных полупроводниковых соединений, содержащих медь и элементы IV и VI групп. // Кристаллография, 1961, Т. 6, Вып. 6, с. 960–964.
7. *Туленин С.С., Марков В.Ф., Маскаева Л.Н., Кузнецов М.В.* Гидрохимическое осаждения и исследование тонких пленок в системе Cu_2S–In_2S_3. // Интернет-конф. «Бутлеровские чтения», г. Казань, 2013, Т.33, №1, с.97-103.
8. *Зотова Т. В., Карагодин Ю. А.* Исследование характера фазового равновесия в тройных системах Cu–Ge(Sn)–S по разрезам $Ge(Sn)S_2$–Cu_2S. // Сб. науч. тр. по проблемам микроэлектроники. Сер.технология спецматериалов и интегральных схем. М.: МИЭТ, 1976, Вып. XXVIII, с. 174–181.
9. *Khanafer M., Rivet J., Flahaut J.* Étude du système Cu_2S–GeS_2. Surstructure du composé Cu_2GeS_3. Transitionde phase de Cu_8GeS_6. // Bul. Soc. Chim. France, 1973, № 3, p. 859–862.
10. *Leticia M. de Chalbaud, Diaz G. de Delgado, Delgado J. M., Mora A. E., Sagredo V.* Synthesis and singlecrystalstructural study of Cu_2GeS_3. // Materials Research Bulletin, 1997, Vol. 32, № 10, p. 1371–1376.
11. *Michelle D. Regulacio, Si Yin Tee, Suo Hon Lim, Zheng Zhang and Ming-YongHan.*Selective formation of ternary Cu–Ge–S nanostructures insolution. // Electronic Supplementary Material (ESI) for Cryst. Eng. Comm., 2018, p. 51-58.
Enerji keyfiyyətsizliyindəki dəyişikliklərdə, zaman qeydi də olduğundan, bu sahədə müəssisələrdəki istehsalat itkilərini və zərərlərin səbəblərini təxmini olaraq hesablamaq olar. Avtonom energetik qurğularda aparılmış ölçülərin nəticəsində alınmış əyrilər şəkil3 və 4-də göstərilmişdir. Əyrilərdən görüldüyü kimi gərginlik və cərəyan əyrilərində dalğa şəkilli kənara çıxmalar müşahidə olunur. Yarımkeçirici elementlərin cihazlarda istifadəsi belə kənara çıxmaları xeyli artıraraq GES-in hasil etdiyi elektrik enerjisinin keyfiyyətini xeyli pisləşdirir.



Şək.4. Harmonikasız əsas sinusoida və harmonik hissələr.

Güc sistemində gərginlikdə harmonik hissələr olanda bundan bütün yüklər təsirlənir. Harmonika daşıyan bir cərəyan isə sadəcə harmonik cərəyan əmələ gətirən bir yükə təsir edə bilər. Harmonikalarla əlaqəli xüsusiyyətlər aşağıdakı kimi ifadə olunur:
Gərginliyin effektiv qiyməti:

$$U = \sqrt{U_0^2 + \frac{U_{1m}^2 + U_{2m}^2 + U_{3m}^2 + U_{4m}^2 + \cdots + U_{nm}^2}{2}}$$

və ya

$$U = \sqrt{(U_0^2 + U_1^2 + U_2^2 + U_3^2 + U_4^2 + \cdots + U_n^2)}$$

Burada $U_1 U_2 \cdots U_n$, hər bir harmonikanın effektiv qiymətləridir
Cərəyanın effektiv qiyməti

$$\text{İ} = \sqrt{\text{İ}_0^2 + \frac{\text{İ}_{1m}^2 + \text{İ}_{2m}^2 + \text{İ}_{3m}^2 + \text{İ}_{4m}^2 + \cdots + \text{İ}_{nm}^2}{2}}$$

$$\text{İ} = \sqrt{(\text{İ}_0^2 + \text{İ}_1^2 + \text{İ}_2^2 + \text{İ}_3^2 + \text{İ}_4^2 + \cdots + \text{İ}_n^2)}$$

Gərginliyin cəm harmonik dəyişikliyi:

$$\%CHD_u = \sqrt{\frac{U_2^2 + U_3^2 + U_4^2 + U_5^2 + \cdots + U_n^2}{U_1}}$$

Cərəyanın cəm harmonik dəyişikliyi

$$\%CHD_{\text{İ}} = \sqrt{\frac{\text{İ}_2^2 + \text{İ}_3^2 + \text{İ}_4^2 + \text{İ}_5^2 + \cdots + \text{İ}_n^2}{\text{İ}_1}}$$

Harmonikaların sistemdə və gəmidə səbəb olduğu mənfi təsirləri aşağıdakılardan ibarət olur:

- Kompensasiyadakı kondensatorların həddindən artıq yüklənməsi və ömürlərinin azalması;
- Rele, ayırıcı və qoruyucuların səhv işləməsi;
- Xətlərin həddən artıq qızması;
- III və V harmonikaların neytral xətti həddən artıq yükləməsi;
- Sistemdə ardıcıl və paralel rezonanslar;
- Sayğaclarda ölçü xətaları;
- Transformatorlarda itkilərin artması;
- Mühərrik, generator və keçirici xətlərdəki itkilər;

Sistemdəki digər yükləri harmonikaların mənfi təsirindən mühafizə etmək və işlədiciyə daha keyfiyyətli enerji ötürülə bilməsi üçün harmonikalar müəyyən səviyyədə saxlanılmalıdır. Ümumiyyətlə qeyri-xətti yüklərin meydana gətirdiyi harmonik hissələri məhdudlaşdırmaqla standartlara uyğunlaşdırmaq mümkün olur.

Beləliklə gəmi elektrik qurğularının elektrik təchizatı sistemlərində, yüklərin quraşdırılması, mövcud avadanlıqların yeniləşdirilməsi, yük altında tənzimləmə qurğularından istifadə, elektrik enerjisinin keyfiyyətinin yüksəldilməsi və s.bir çox məsələlərin kompleks tədbirlərinin görülməsi, avtonom elektroenergetik sistemin səmərəli və etibarlı işini təmin edər.

NƏTİCƏ

Məqalədə göstərilən ifadələrin köməyilə aparılmış hesabatların nəticəsi olaraq, qeyd etmək olar ki, dəyişən cərəyan elektrik intiqalların qidalandırılmasında enerji mənbəyi tərəfində yaranan güc itkiləri ümumi gücün 1%-ni təşkil edir. Bu isə dizel-generator qurğusunun istifadə etdiyi yanacağın müvafiq olaraq artırılmasını tələb edir. Bu zaman GEŞ-in ayrı-ayrı hissələrində itkilərin kifayət qədər olması müxtəlif iş rejimlərində onlara nəzarət etməyi tələb edir. Həmçinin gəmilərdə generatorlar vasitəsilə hasil olunan elektrik enerjisinin itkilərinin azadılması və enerji istehsalının maya dəyərinin aşağı salınması məsələsinə və elektrik şəbəkələrinin kompleks avtomatlaşdırılması, texnologiyanın müasirləşdirilməsi və təkmilləşdirilməsi nəticəsində elektrik enerjisinin keyfiyyətinin yüksəldilməsi məsələsinə aid tədbirləri araşdırılmışdır.

1. *Mehdiyev H.A.* Gəmilərin avtomatlaşdırılmış elektroenergetika sistemləri. Ali məktəb tələbələri üçün dərslik. Bakı: ”Nurlan”, 2006, s.340.
2. *Sultanov E.F., Cəlilov T.A.* Müasir gəmi elektrik stansiyaları və şəbəkələri, Bakı, ADDA mətbəəsi, 2018 s.330.
3. *Лёмин П.А., Пруссаков А.В., Григорьев А.В.* Эксплуатация судовых систем электроснабжения. Учебное пособие Санкт-Петербург: ГМА им. Адм. С.О.Макаров, 2009г, с.180.
4. *Həmidov M.H., Muradova R.Ə.* “Dəniz–neft mədən elektrik avadınlıqları” Bakı2012, s.301.
5. *Həmidov M.H., Məhərrəmov R.N.*“Elektrik enerjisinin keyfiyyət göstəriciləri və onların normalaşdırılması”. Energerikanın problemləri. Bakı-2016. s. 99.
6. *Юревич Ю. Н., Кабиков К. В.* Особенности электроснабжения ориентированного на бесперебейного работу промышленное потребителя. Москва – 2005. с.297.

ИССЛЕДОВАНИЕ КАЧЕСТВА И ПОТЕРЬ ЭЛЕКТРИЧЕСКОЙ ЭНЕРГИИ В СУДОВЫХ ЭЛЕКТРОЭНЕРГЕТИЧЕСКИХ СИСТЕМАХ

ИСМАИЛОВ С.С., СУЛТАНОВ Е.Ф., ДЖАЛИЛОВ Т.А.

В статье рассмотрены вопросы определения потерь мощности в генераторном кабеле и статорных обмотках синхронных генераторов судовой электростанции. Установлено, что при исследовании причин не синусоидальности кривых тока, достаточно учесть влияние первых семи гармоник. Также в статье указано на работу судового электрооборудования в неблагоприятных условиях, наряду с тем, что оно имеет различные режимы работы, а также исследованы задачи снижения потерь энергии в таком оборудовании и снабжение потребителей качественной электроэнергией.

Ключевые слова: судно, электростанции, синхронный генератор, потеря мощности, несинусоидальность, кабеля.

THE RESEARCH OF ELECTRİCAL ENERGY LOSSES AND QUALİTY İN THE SHİPS ELECTROENERGETİC SYSTEMS

ISMAILOV S.S., SULTANOV E.F., JALILOV T.A.

The article considers the issues of determining power losses in the generator cable and stator windings of synchronous generators of the ship powerstation. İt is established when studying the resons of the no sinusoidalcurrent curves, it is enough to take into account the impact of the first seven harmonics. The article also refers to the operation of marine electrical equipment in unfavorable conditions, along with the fact that it has various operating modes, aswell as studies of the task of reducing energy losses in such equipment and supplying consumers with high quality electric energy.

Keywords: ship, power station, synchronous generator, power loss, non-sinusoidal, cables.

UOT 621.311

GƏRGİNLİK KEYFİYYƏTİ VƏELEKTRİK ŞƏBƏKƏLƏRİNDƏ GƏRGİNLİK REJİMLƏRİNİN ANALİZİ

HƏSƏNOV Q.Ə., RZAYEV M.A.

Azərbaycan Texniki Universiteti
garahasanov@gmail.com
rzayevmurad1997@yahoo.com

Elektrik enerjisinin keyfiyyətinə olan tələblər sənaye, kənd təsərrüfatı, ictimai, yaşayış binaları və s. sahələrdə istifadə edilən cihaz və avadanlıqların təkmilləşdirilməsi və inkişafı ilə əlaqədar daha da aktuallaşmışdır. Keyfiyyət göstəricilərinin əsasını elektrik şəbəkələrində gərginlik və tezlik meyletmələri və rəqslənmələri təşkil edir. Ona görə məqalədə əsasən şəbəkələrdə maksimal və minimal yüklənmə şərtlərində gərginlik dəyişmələri analiz edilmişdir. Bu məqsədlə gərginlik meyletmələrinin 2,5-5%-li dəyişmə hədlərinin qrafo – analitik hesabat üsuluna baxılır.

Açar sözlər: gərginlik keyfiyyəti, gərginlik düşküsü, orta və alçaq gərginlikli şəbəkələr, qida mərkəzi.

Elektrik enerjisinin keyfiyyətinin idarə edilməsi o zaman efektiv olur ki, qərar qəbul edən işçi heyyət kifayət qədər məlumatlı olsun. Personalın qərarları idarə edilən obyektdən alınan aşağıdakı iki cür məlumatlardan və onların çevrilməsi və emalından asılıdır: -ölçü və müşahidə (bu məlumatların nəticələri personalda saxlanılır və işçilərin peşə hazırlığından, sənədləşmədən, statistikadan və s.-dən asılı olur); - ikinci məlumat növü isə, personalın elektrik şəbəkəsinin modeli və model rejimi haqqında biliklərindən ibarətdir.

Personal elektrik rejim parametrləri və elektrik şəbəkə funksiyaları haqqında nə qədər çox bilərsə, ölçü və müşahidə məlumatlarından bir o qədər az istifadə edər. Məlumatlar xəbərlər şəkilində rəqəmsal kanallarla ötürülür. Xəbər siqnalları müxtəlif həcmlərdə olur. Məsələn 100 sözdən ibarət olan məlumat 10 sözdən ibarət məlumatdan daha həcmlidir. Eyni məlumatı müxtəlif sayda xəbərlə ötürdükdə məlumatın "sıxışdırılması"ndan istifadə edilir. Məlumatın sıxışdırılması onun ötürülməsində, alınmasında və emal olunmasında əmək tutumunu azaldır.

Gərginliklərin qida mərkəzlərində tənzimlənməsi çox effektiv olur. Bu zaman bütün paylayıcı şəbəkədə gərginlik rejimləri tənzimlənmiş olur. Bir çox hallarda QM-i şinlərində tənzimləmə şəhər şəbəkəsinin elektrik işlədicilərində Eİ gərginliyin keyfiyyətini tələb olunan səviyyəyə çatdırır və bu məqsədlər üçün əlavə xərclər lazım gəlmir. Gərginliyin istənilən qanunla avtomatik tənzimlənməsi üçün, xüsusi AGT avtomtik gərginlik tənzimləyiciləri tətbiq edilir şək.1.

Bir sıra hallarda QM də tənzimlənən gərginliklər bütün Eİ –nin sıxaclarında lazım olan keyfiyyətli gərginliyi təmin edir. Bu o halda mümkün olur ki, OG şəbəkəsinin uzunluğu az, şəbəkəyə qoşulan yüklər isə bircinsli və ya ona yaxın olsun şək.1.

Təsiredici amillərin qarşılıqlı əlaqələrini, paylayıcı şəbəkənin xarakteristik parametrləri və keyfiyyət göstəricilərini aydınlaşdırmaq üçün, bütünlükdə şəbəkənin xarakterik və kənar hədlərdəki iş rejimlərini nəzərə alan ümumiləşdirilmiş qrafik qurulmalıdır.

Analizlər üçün ümumiləşdirilmiş diaqramın qurulmasında, nisbi vahidlər (faizlə) və maksimal yüklənmə şərtlərində gərginlik düşüküsü V^1 ordinat oxunda vəminimal yüklənmədə gərginlik düşküsü V^{11} –in qiymətləri absis oxunda qeyd edilir. Standartlara uyğun olaraq gərginik düşkülərinin bu qiymətləri işlədiciərin girişində buraxılan hədlərini aşmamalıdır. Sadəlik üçün bu hədləri +5% və-5% götürürlər. Belə oduqda Eİ-in girişində gərginliyin

buraxılan hədləri *abcd kvadratı* şək.3-də olduğu kimi göstərilir. Kvadratın tərəfi 10%, gərginlik düşüküsünə, mərkəzi isə koordinat başanğıcına düşür.



Şək.1 Alçaldıcı yarımstansiyaların tipik və prinspial sxemləri.



Şək.2.Orta gərginlikli OG və aşağı gərginlikli paylayıcı şəbəkələrin prinspial sxemləri.

Qida mərkəzləri, orta gərginlik OG (a-b) və aşağı gərginlik AG (M-K) nöqtələri arası paylayıcı şəbəkələrdə gərginlik rejimlərinin tədqiqatları üçün şək.4.3 və ümumiləşdirimiş diaqramlar üsulu istifadə edilir. Şəkildə *M* nöqtəsi AG xəttinin başalanğıcına, *K* nöqtəsi isə həmin xəttin ən uzaq elektriki nöqtəsinə uyğundur.



Şək. 3. Gərginlik rejimlərinə görə V[1] və V[11] koordinatlarında elektrik işədicilərinin buraxılan iş şəraitləri və asılılıqların ümumi diaqramı.

Verilmiş koordinat sistemində *MK* xəttinin başlanğıc *M* nöqtəsində gərginlik meyletmələrinin $V_{ş}^{!}$ $və V_{ş}^{!!}$ koordinatları ilə xarakterizə edilir.

Şək.3-də $V_{ş}^{!}$ $və V_{ş}^{!!}$ koordinatlarında qurulmuş diaqrama, tənzimləmə gərginliyi +5% olan OG paylayıcı transformatora (PT) qoşulması üçündür.Başqa OG tənzimləyicisi olan PT (0 və -5%, +2.5, 0, +2.5 və -5%-li beş budaqlanması olan) sxemlərdə diaqrama əlavə kvadratların quruması ilə çəkilir şək4.



Şək.4. QM-ə qoşulmuş OG və AG şəbəkələrində gərginlik rejimlərinin ümumi diaqramı.

Bu kvadratlar üç tənzimləyici budaqlanması olan transformatorlar üçün 5 və 10% aşağı və sol tərəfə sürüşdürülməlidir, beş tənzimləmə budaqlanması olan PT-larda isə 2.5, 5, 7.5 və 10% aşağı və sola sürüşdürülməlidir.

Deyilən qaydada qurulmuş şək.4 diaqramı, qida mərkəzinə QM-ə birləşmiş bütün OG və AG şəbəkələrinin gərginlik rejimlərini analiz edə bilir. Şək.4.4-də verilmiş koordinatlar sistemində diaqramın hər hansı nöqtəsində gərginlik meyletməsi şəbəkənin OG pilləsinə gətirilmişdir. OG və AG şəbəkələrində gərginlik düşküləri bilavasitə həmin diaqramlardan təyin edilir. Şək.4 diaqramında qurulmuş əlaqəli kvadratların məhdudlaşdırdığı oblast Eİ –nin iş şərtlərindən asılıdır. Orta gərginlik şəbəkəsinin şərtlərində gərginlik rejimlərinin qrafikini quraq şək.3. Prinsipcə qrafik fərqli bucaq əmsalına malikdir:

$$tga_{Ş} = \frac{\Delta U'_{Ş}}{\Delta U''_{Ş}} = \frac{1}{\beta} \qquad (1)$$

OG şəbəkəsində gərginlik rejiminin alınmış dəyişmə qrafikində ən böyük yük rejimi üçün uc nöqtələrinin fərqi ordinat oxunda $\Delta U'_{Ş}$, absiss oxunda isə, ən kiçik yük rejimi üçün qiymətlər fərqi $\Delta U''_{Ş}$ verilmişdir.

AB düz xəttinin üzərində, yuxarı kvadrantda alınmış *A-A1* hissəsi göstərir ki, şəbəkənin həmin hissəsinə OG gərginlikli paylayıcı transformator PT birləşdirmək olmaz. Çünki, şəbəkənin həmin hissəsində AG gərinlikləri buraxıla bilən hədlərdən kənara çıxır. Beləliklə, gərginliyin verilmiş rejimində QM-in OG şəbəkə hissəsinin ən böyük yüklənmə rejimi üçün $\Delta U`_k$ -ə bərabər olan itkilərinə görə həmin hissə QM ilə yaxınlıqdakı PT arasında birləşdirici kimi olmalıdır. Şəbəkənin sonra gələn hissələrinə PT birləşdirilə biər. Maksimal yüklənmə rejimində ən böyük gərginlik düşküsünün 5% oldduğu A_1 – A_2 OG şəbəkə hissəsinə budaqlanma ilə +5%-li PT birləşdirmək olar. AG şəbəkələrinin həmin PT-dən aldığı gərginliklərin fərqli düşkülərdə olduğu görünür. QM-ə ən yaxın olan A_1 transformatorunun AG şəbəkəsində maksimal yüklənmə rejimində buraxılan gərginlik düşküsü $\Delta U_{ənböy}$ =10 % olur, ən uzaq A_2nöqtəsinə birləşdirilmiş PT işlədicisində isə $\Delta U_{ənuzaq}$ =5 % olur. OG şəbəkəsinin sonrakı A_2 - A_4 hissələrinə 0 %-li tənziməyici budaqlanmalar birləşdirmək lazımdır. Bu halda həmin hissənin AG şəbəkələrinin iş şəraitləri əvvəlki şəbəkə hissəsində olduğu kimi qalacaqdır. Beləlikə, OG şin sisteminə qoşulan yüklərin seçilməsilə işlədicilərin elektrik təchizatının etibarlılığını artırmaq, şəbəkə elementlərində güc və enerji itkilərini azaltmaq, keyfiyyət və texniki-iqtisadi göstəriciləri yüksəltmək olar. A_2 – A_4 hissəsində tənzimləyici budaqlanması olan AG şəbəkəsində ən böyük gərginlik itkiləri 10% -ə bərabərdir. Bu A_2nöqtəsinə tənzimləyici budaqlanma ilə birləşdirilmiş PT şəbəkəsinə aiddir. A_3 nöqtəsinin PT –una birləşdirilmiş AG şəbəkəsinin gərginlik düşküləri -7,5% və A_4 nöqtəsinin PT-una birləşdirilmiş işlədicilərin gərginlik düşküləri 5% olur, şək. 2.

OG şəbəkəsinin alınmış diaqramından görünür ki, -5%-li budaqlanma tənzimləyicisi olan paylayıcı transformatorun qoşulması yol verilməzdir. Çünki A_4 *-B* xəttinin həmin hissəsi, kvadrantın Eİ gərginliyinə görə buraxıla bilən həddini keçir. A_4B hissəsinə orta budaqlanmada 0% PT birləşdirilməsi də məqsədə uyğun olmur. Çünki bu zaman AG şəbəkəsinin buraxıla bilən gərginik düşüküsü 5% -dən kiçik olur.

Praktiki olaraq AG şəbəkələrində buraxıla bilən gərginlik düşküləri fərqli olmamalıdır. Ona görə yük rejiminin dəyişməsilə tənzimləyici budaqların tez-tez dəyişdirilməsi şərtlərindən imtina etmək lazımdır. Bu məqsədlə maksimal yüklənmə şərtləri üçün, AG şəbəkələrində gərginlik itkilərinin ən aşağı hədləri nəzərdə tutulmalıdır.

NƏTİCƏ

Gərginlik keyfiyyətinə olan tələbləri nəzərə alaraq gərginliyin qida mənbəyində tənzimlənməsi daha məqsədəuyğundur. Gərginlik meyletmələrinin müxtəlif dəyişmə hədlərinin qrafo – analitik hesabatı araşdırılmışdır. Bu hədlərin 2,5-5% - li dəyişilməsi

alınmışdır. Maksimal və minimal yüklənmə şərtlərində gərginlik düşküsünün hesablanması analiz edilmişdir.

---

1. *Ульянов С. А.* Электромагнитные переходные процессы в электрических системах [Текст]: учеб. для вузов / С. А. Ульянов. – М.: Энергия, 1970. с.520.
2. *Герасименко А.А.* Электроэнергетические системы и сети. Расчетыпараметров и режимов работы электрических сетей [Текст]: Учеб. пособие: в 2ч. Ч. 1 /Герасименко, А.А., Чупак, Т.М. Красноярск: ИПЦ КГТУ, 2004. –с.222.
3. *Неклепаев Б.Н.* Электрическая часть электростанций и подстанций:Справочные материалы для курсового и дипломного проектирования [Текст]:Учеб. пособие для вузов / Б.Н. Неклепаев, И.П. Крючков. – М.: Энергоатомиздат, 1989. – с.608.
4. http://ieeexplore.ieee.org/stamp/stamp.jsp?tp=&arnumber=1637640&isnumber=34324

АНАЛИЗКАЧЕСТВА НАПРЯЖЕНИЯ И РЕЖИМОВ НАПРЯЖЕНИЯВ ЭЛЕКТРИЧЕСКИХ СЕТЯХ

ГАСАНОВ Г.А., РЗАЕВ М.А.

В связи с усовершенствованием и развитием приборов и агрегатов, используемых в области промышленности, сельского хозяйства, общественного и жилищного строительства и т.д., требования к качеству электроэнергии возросли. Основными показателями качества электроэнергии являются напряжение, отклонение и колебания частоты в электросетях. Поэтому в статье в основном рассматривается отклонение напряжения в режиме максимальной и минимальной нагрузки. С этой целью отклонение напряжения в диапазоне 2.5-5% было рассмотрено графо-аналитическим методом расчета.

Ключевые слова: качество напряжения, падение напряжения, сети среднего и низкого напряжения, центр питания.

VOLTAGE QUALITY AND ANALYSIS OFVOLTAGE REGIMES IN ELECTRICAL NETWORKS

HASANOV G.A., RZAYEV M.A.

Electricity quality requirements include industry, agriculture, public housing, etc. the improvement and development of devices and equipment used in the field. The main indicators of quality are voltage and frequency tension and oscilatory in electrical networks. Therefore, the article mainly analyzes the voltage changes in the maximum and minimum load conditions on the networks. For this purpose, a graphical-analytical reporting method with volatility deviations of 2.5-5% is considered.

Keywords: tension quality, voltage drop, moderate to low voltage networks, powercenter.

УДК.621.313

TƏSİRLƏNMƏSİ TƏNZİMLƏNƏN SİNXRON GENERATORLU VAL-GENERATOR QURĞUSUNDA ELEKTROMEXANİKİ REZONANSIN TƏDQİQİ

RÜSTƏMOV R.M.

Azərbaycan Dövlət Dəniz Akademiyası
ramiz.rüstəmov@mail.ru

[1,2]-də müəyyən edilmişdir ki, dənizin dalğalanması səbəbindən sinxron val- generatorda məcburi rəqslər yaranır. Sinxron generatorun gəmi dizel generatoru ilə paralel işlədiyi zaman, göstərilən rəqslər sərbəst rəqslərdə toplanaraq təhlükəli nəticələrə gətirə biləcək elektro-mexaniki rezonans yarada bilər. Bu məqalədə gəmi üçün təhlükəli olan, qeyd olunmuş rejimin tədqiqinin nəticələri verilmişdir. Göstərilmişdir ki, sinxron generatorun təsirlənməsinintənzimi ilə rəqslərin əhəmiyyətli dərəcədə azaldılmasına nail olmaq mümkündür.

Acar sözlər: val-generator qurğusu, sinxron generator, elektromexaniki rezonans, təsirlənmənin tənzimi.

[3] – də göstərildiki, sinxron generatorun, təsirlənmə dolağına avar vintinin momentinin dəyişmə tezliyi ilə gərginliyin dəyişən mürəkkəbəsinin verilməsi sayəsində rotorun rəqslərini azaltmaq olar. Bu halda sinxron generatora iki harmoniki dəyişən təsirləndirici təsir tətbiq edilir:

1) avar vintinin müqavimət momentin fluktuasiya mürəkkəbəsi
2) təsirlənmə gərginliyi

Bunlardan birincisi birbaşa generatora, ikincisi isə təsirlənmə sisteminə tətbiq edilir və elektromaqnit yolla rotorun hərəkət xarakterinə təsir edir.

Qeyd edilən təsirləndirici təsirlər, işarələr eyni olduqda, müxtəlif istiqamətlərdə rotorun nisbi hərəkətini yaradır. Belədiki, avar vintinin müqavimət momentinin artımı rotorun dönmə bucağını artırır, təsirlənmə gərginliyinin artımını isə bu bucağı azaldır.

Əgər amplitudalar eyni olarsa, birinci təsir ikincisi ilə kompensasiya olunacaqdır. Deyilənləri nəzərə alsaq yazmaq olar [1]:

$$\Delta\dot{\delta} = \frac{\Delta\dot{M_V} - \dot{M_{ef}}}{-\omega_v T_j + J\omega_v K_1 + K_2} \quad (1)$$

Burada $\Delta\dot{\boldsymbol{M}}_{\boldsymbol{ef}}$-təsirlənmənin tənzimlənməsi səbəblərindən yaranan elektromaqnit momentinin artımıdır.

(1) ifadəsindən görünür ki, rotorun rəqslərini tamamilə yox etmək üçün$\Delta\dot{\boldsymbol{M}}_{\boldsymbol{V}} = \dot{\boldsymbol{M}}_{\boldsymbol{ef}}$ olmalıdır ki, yəni bu momentlərin həm amplitudaları həm də fazaları bərabər olmalıdır.

Təsirlənmənin tənzim olunması zamanı sinxron generatorun elektromaqnit moment artımının amplitudası aşağıdakı ifadənin həqiqi hissəsi ilə təyin edilir:

$$\Delta M_{ef} = R_e \left[U sin\delta_0 \cdot \frac{G_d(j\omega)}{X_d(j\omega)} \cdot \Delta U_f \right] \quad (2)$$

burada $\boldsymbol{G_d(j\omega)}$ və$\boldsymbol{X_d(j\omega)}$ – kompleks keçiricilik və induktivlik müqavimət;
$\Delta\boldsymbol{U_f}$ – təsirlənməgərginliyinin artımıdır. $\boldsymbol{G_d(j\omega)}$ – nin ifadəsi belədir:

$$j\omega) = \frac{X_{ad}/r_f}{1 + j\omega T_{do}} \quad (3)$$

Burada və bundan sonra işarələr ümumi qəbul edilmişlərdir [3].
(3)-ü (2) -ə qoysaq alarıq:

$$\Delta M_{ef} = R_e \left[\frac{U_{sin\delta_0}}{X_d}(1 + j\omega T_{do})K_f \cdot \Delta U_f\right] \qquad (4)$$

Burada$K_f = \frac{X_{ad}/r_f}{1+(T^{l}d)^2}$
(4)- dən həqiqi hissəni ayiraraq taparıq:

$$\Delta M_{ef} = \frac{U_{sin\delta_0}}{X_d} \cdot \frac{X_{ad}/r_f}{1+(T^{l}d)^2} \cdot \Delta U_f (5)$$

$*$ bu ifadə elektromaqnit momentin $\boldsymbol{M_e = \psi_d i_q - \psi_q i_d}$əsas ifadəsinəəsasən çıxarılır.
Burada qeyd etmək lazımdır ki, $\boldsymbol{\Delta U_f}$ **d** $(\Delta\boldsymbol{\delta})$ **/ dt,** $\boldsymbol{d^2(\Delta\delta)/dt^2}$ və s. kimi siqnal funksiyaları olaraq, təsirlənmə tənzimləyicisi tərəfindən avtomatik formalaşdırılır.

Ümumi halda təsirlənmə dolağında gərginlik aşağıdakı formada olur:

$$U_f = U_{fo} + \Delta U_f = U_{fo} + K_{f1}\frac{d(\Delta\delta)}{dt} + K_{f2}\frac{d^2(\Delta\delta)}{dt^2} \qquad (6)$$

Təsirlənmənin tənzimlənməsi səbəbindən təsirlənmə dolağında cərəyan artımının amplitudası

$$\Delta i_f = \frac{\Delta U_f/\tau_f}{1+(T^{l}d)^2} \qquad (7)$$

$\boldsymbol{\Delta i_f}$ təsirlənmə cərəyanının artımını bilərək, sinxron generatorun lövbər dolağında elektrik hərəkət qüvvəsi artımı:

$$\Delta e_f = \Delta i_f \cdot X_{ad} \qquad (8)$$

$\boldsymbol{\Delta e_f}$elektrik hərəkət qüvvəsinin qiyməti və son nəticədə$\boldsymbol{\Delta M_{ef}}$ – i təyin edir.
Əgər (5) və (7) ifadələrində$\boldsymbol{\omega=0}$ qoysaq, qərarlaşmış rejim üçün elektromaqnit moment artımının ifadəsini alarıq:

$$\Delta M_{ef0} = \frac{U\Delta e_{f0}}{X_d}\sin\delta_0 \quad (9)$$

Sonuncu ifadəni biz mülahizələrimizin doğru olduğunu göstərmək üçün verdik. Həqiqətən də, $\boldsymbol{\omega=0}$$\boldsymbol{\Delta U_f=0}$ və$\boldsymbol{\Delta M_{ef}=0}$ olur. Bu başa düşüləndir. Yəni $\boldsymbol{\omega=0}$ olduqda, dalğanıntəsiri olmadıqda $\boldsymbol{\Delta M_V=0}$ olur və bu səbəbdən də təsirlənmənin tənzimlənməsinə ehtiyac qalmır.

Əlavə olaraq qeyd edək ki, təsirlənmə cərəyanının artımı $\boldsymbol{\Delta i_f}$, $\boldsymbol{\Delta U_f}$ gərginlik artımından fazaca geri qalacaq. Bu bucaq $\boldsymbol{a = arctg\omega T^{l}d}$ olur. Təsirlənmə dolağının zaman sabiti $\boldsymbol{T^{l}d}$ böyük qiymətə malik olduğundan hətta kiçik tezliklərdə (1-3) **Hs** belə bu bucaq 90^0olur. Bu amil o cümlədən ifadəsində$\boldsymbol{sin\delta_0}$ olduğu üçün təsirlənmə dolağına böyük cərəyanın verilməsi tələb olunur. Prinsip etibarı ilə təsirlənmə dolağına belə böyük cərəyan verməkolar. Digər tərəfdən isə, xüsusən də val-generator qurğusu üçün bu böyük çətinliklərləəlaqədardır. Böyük əlavə təsirlənmə cərəyanlar sinxron generatorun stator cərəyanının və reaktiv gücün böyük rəqslərinə gətirib çıxarır. Təbii olaraq bu gəmi elektroenergetik sisteminin işinə çox böyük mənfi təsir göstərir.

NƏTİCƏ

Müəyyən edilmişdir ki, sinxron val-generatorun təsirlənməsini tənzim etməklə, dənizin dalğalanması səbəbindən avar vintinin momentinin fluktasion mürəkkəbəsi təsirindən yaranan rotor rəqslərini əhəmiyyətli dərəcədə azaltmaq olar. Digər tərəfdən isə belə tənzimləmə,

sinxron generatorun stator cərəyanın və reaktiv gücün rəqslərinin yaranmasına gətirib çıxarır. Beləliklə, standart konstruksiyalı sinxron generator val-generator qurğusunda elektromexaniki rəqslərin aradan qaldırılması məsələsini tam şəkildə həll edəbilmir.

---

1. *Rüstəmov R.M.* Sinxron val-generator qurğusunda elektromexaniki rezonansının tədqiqi / Gənc tədqiqatçı, 2018, IV cild, № 2, s.18-22.
2. *Abdulkadırov A.İ. Əliyev N.A., Rüstəmov R.M.* Sinxron val-generator qurğusunda məcburi rəqslər /Energetikanın problemləri, 2019, №2, s.3-5.
3. *Абдулкадыров А.И., Рустамов Р.М.* Математическое моделирование в электромеханике /Lambert Academic Publishinq (LAP), Берлин, 2015.
4. *Abdulkadirov A.İ., Əliyev N.A.,* Xüsusi elektrik maşınları. Monoqrafiya, Bakı, ELM nəşriyyatı, 2018, s.215.
5. *Абдулкадыров А.И., Рустамов Р.М.* Применение энергосберегающих принципов управления в судовых электрических установках) Международный научный журнал «Альтернативная энергетика и экология», РФ, 2014, №21.

ИССЛЕДОВАНИЕ ЭЛЕКТРОМЕХАНИЧЕСКОГО РЕЗОНАНСАВ СИНХРОННОМ ВАЛОГЕНЕРАТОРЕ ПРИ РЕГУЛИРОВАНИИ ВОЗБУЖДЕНИЯ

РУСТАМОВР.М.

Проанализированы методы демпфирования колебаний синхронного валогенератора, могущих быть причиной возникновения электромеханического резонанса. Это – установкана валу маховика и регулирование возбуждения синхронного генератора. Первый метод при выборе соответствующих параметров и конструкции маховика позволяет полностью погасить колебания. Однако его применение в валогенераторной установке сопряжено с определенными недостатками. Регулированием возбуждения синхронного генератора можно также избавиться от колебаний ротора. Однако здесь вместо колебаний ротора возникают колебания тока статора и реактивной мощности. Последние также не желательны в валогенераторной установке.

Ключевые слова: вал генератора, синхронный генератор, электромеханический резонанс, регулировка возбуждения.

RESEARCH OF ELEKTROMECHANICAL REZONANCE IN SYNCHRONOUS SHAFT GENERATOR WITH REQULATION OF EXCITATION

RUSTAMOV R.M.

The methods of damping the oscillations of a synchronous generator, which can be the cause of Electromechanical resonance, are analyzed. This is the installation on the flywheel shaft and regulation of excitation of the synchronous generator. The first method, when selecting the appropriate parameters and design of the flywheel, allows you to completely extinguish the vibrations. However, its use in the generator set is associated with certain disadvantages. By regulating the excitation of the synchronous generator, you can also get rid of the rotor oscillations. However, here, instead of rotor oscillations, there are oscillations of the stator current and reactive power. The latter is also not desirable in a shaft-generator installation.

Keywords: shaft generator, synchronous generator, electromechanical resonance, exposure regulation.

UOT 621-317.7;621-319

TEZLİK ÇEVİRİCİLİ ASİNXRON ELEKTRİK İNTİQALI

KƏRİMZADƏ G.S., MUXTAROV C.B.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetıı
Azərbaycan ,Bakı AZ 1010, Azadlıq prospekti, 20
gulschen98@mail.ru

Tənzimlənən elektrik intiqalının tətbiqi enerji qənaətini təmin edir və sistem və obyektlərin yeni keyfiyyətlərinin alınmasına imkan verir. Hər hansı bir texnoloji parametrin tənzimlənməsi hesabına elektrik enerjisinin xeyli qənaəti təmin edilir. Əgər bu dəzgahdırsa, onda sürət və ya əsas hərəkətlə səlis tənzimləmək olar. Tezlik çeviricilərin istifadəsindən obyektlərdə xüsusi iqtisadi effekti tezlik tənzimlənməsinin tətbiqi verir. Məlum olduğu kimi, icra mexanizmlərinin fırlanma tezliyinin tənzimlənməsini müxtəlif qurğular vasitəsilə aparmaq olar (stator və rotora əlavə daxil olan rezistorlarla, elektromexaniki tezlik çeviricilərilə, statik tezlik çeviricilərilə). Asinxron elektrik intiqalın idarəsində statik tezlik çeviriciləri ən mükəmməl qurğulardır.

Açar sözlər:asinxron elektrik intiqalı, tezlik tənzimlənməsi, texnoloji parametr, sistem, obyekt, sürət tənzimlənməsi, energetik göstəricilər, verilən gərginlik, tezlik çeviricisi.

İcra mexanizmlərinin fırlanma tezliyinin tənzimlənməsini elektromexaniki tezlik çeviriciləri, statik tezlik çeviriciləri və s. müxtəlif qurğular vasitəsilə aparmaq olar. Lakin onların bəziləri sürət tənziminin yüksək keyfiyyətini təmin etmir, iqtisadi cəhətdən istismarda və montaj işlərində böyük xərclər tələb edir. Hal hazırda asinxron elektrik intiqalın idarəsində statik tezlik çeviriciləri ən mükəmməl qurğulardır[1-3].

Asinxron mühərrikin sürət tənziminin tezlik üsulunun prinsipi ondadır ki,

$$\omega_0 = \frac{2\pi f_1}{p}$$

ifadəsinə uyğun olaraq, qida gərginliyinin tezliyini f_1 dəyişərək və qütblər cütününə p dəyişməz sayında statorun maqnit sahəsinin bucaq sürətini dəyişmək olar. Bu üsul sürıtin geniş diapazonda səlis tənzimini təmin edir, mexaniki xarakteristikalar isə yüksək sərtliyə malikdirlər. Belə halda sürətin tənzimlənməsi asinxron mühərrikin sürüşməsinin artması ilə aparılmır, ona görə tənzimləmədə güc itgiləriçox deyil. Mühərrikin yüksək energetik göstəricilərinə: güc əmsalı, faydalı iş əmsalı, artıq yüklənmə-nail olmaq üçün tezliklə eyni zamanda verilən gərginlik də dəyişməlidir. Gərginliyin dəyişmə qanunu yük momentinin M_c xarakterindən asılıdır. Sabit yük momentində M_c=const statorda
kı gərginlik tezliyə mütənasib tənzimlənməlidir :

$$\frac{U_1}{f_1} = const\ ,$$

yük momentinin digər xarakteri üçün: $\frac{U_1}{f_1^{\,2}} = const\ .$

Yük momenti sürətə əks mütənasib olduqda isə : $\frac{U_1}{\sqrt{f_1}} = const\ .$

Beləliklə, asinxron elektrik mühərrikin valının fırlanma tezliyinin səlis tənzimi üçün tezlik çeviricisi mühərrikin statorunda tezlik və gərginliyin eyni zamanda tənzimlənməsini təmin etməlidir. Texnoloji proseslərdə tənzimlənən elektrik intiqalın istifadəsinin üstünlükləri: tezlik tənzimlənmənin perspektivliyi, bu da öz növbəsində elektrik enerjinin qənaətini təmin edir və itgiləri azaldır; tezlik çeviricisinin strukturu: bir çox müasir tezlik çeviriciləri ikili çevrilmə sxemi əsasında qurulmuşlar. Belə çeviricilər aşagıdakı hissələrdən ibarətdirlər: sabit cərəyan bəndi (idarə olunmayan düzləndirici), güc impuls invertoru və idarə sistemi.Sabit cərəyan bəndi idarə olunmayan düzləndirici və süzgəcdən ibarətdir.Qidalandırıcı şəbəkənin dəyişən gərginliyi sabit cərəyan gərginliyinə çevrilir.

Üçfazlı güc impuls invertoru altı tranzistor açarlarından ibarətdir.Mühərrikin hər bir dolağı uyğun açar vasitəsilə düzləndiricinin müsbət və mənfi çıxışlarına qoşulur. İnvertor düzləndirilmiş gərginliyin lazımı tezlikdə və amplitudada olan üçfazlı dəyişən gərginliyə çevrilməsini yerinə yetirir, bu da mühərrikin stator dolaqlarına verilir.

İnvertorun çıxış kaskadlarında güc IGBT-tranzistorları açar vasitəsi kimi istifadə olunurlar. Tiristorlarla müqayisədə onlar daha yüksək çevirgəc tezliyinə malikdirlər,bu da sinusoidal formalı çıxış siqnalın minimal təhriflərlə yaranmasına imkan yaradır.

Tezlik çeviricisi idarə olunmayan diod güc düzləndiricidən B, avtonom invertordan, idarə sistemindən, avtomatik tənzimləmə sistemindən, drosseldən L_B və süzgəc kondensatordan $C_ф$ ibarətdir (şək.1). İnvertorda çıxış tezliyinin $f_{çıx}$ və gərginliyin $U_{çıx}$ tənzimi yüksək tezlikli eninə-impuls idarəsi hesabına aparılır. Belə idarə modulyasiya periodu ilə xarakterizə olunur, və bunun daxilində elektrik mühərrikinin stator dolağı növbə ilə düzləndiricinin müsbət və mənfi qütblərinə qoşulur. Periodun daxilində bu vəziyyətin müddəti sinusoidal qanunla modullaşdırılır. Yüksək takt tezliklərdə (adətən 2.....15 kHs.) mühərrikin dolaqlarında süzgəc xüsusiyyətlərinə görə, sinusoidal cərəyanlar axır[2-5].



Şək.1. Tezlik çeviricisi: *И* -üçfazlı körpü invertoru;B- üçfazlı körpü düzləndiricisi; $C_ф$ –süzgəcin kondensatoru.

Çıxış gərginliyi əyrisinin forması yüksəktezlikli ikipolyarlı düzbucaq impulsların ardıcıllığıdır (şək.2). İmpulsların tezliyi eninə-impuls modulyasiyasənın tezliyi ilə təyin olunur. İmpulsların müddəti (eni) avtonom invertorun çıxış gərginliyinin periodunda sinusoidal qanunla modullaşdırılıb.

Çıxış cərəyanının forması (asinxron mühərrikin dolaqlarındakı cərəyan) praktiki olaraq sinusoidaldır. İnvertorun çıxış gərginliyinin tənzimi iki üsulla aparılır: amplituda üsulu (giriş gərginliyinin U_B dəyişməsi) və eninə-impuls üsulu (U_B=const olduqda V1-V6 ventillərin çevirgəc proqramının dəyişməsi). İkinci üsul müasir element bazasının inkişafında müasir tezlik çeviricilərində daha geniş öz tətbiqinin tapmışdır. Bu üsulda mühərrikin stator dolaqlarında cərəyanın forması sinusoidala yaxındır, bu da dolaqların süzgəclik xüsusiyyətlərinə görə alınır.

Belə idarəetmə çeviricinin yüksək FİƏ-nın alınmasına imkan verir və gərginliyin tezlik və amplituda vasitəsilə analoq idarəetməyə ekvivalentdir.



Şək.2. Çıxış gərginlik və cərəyanın forması.

Müasir invertorlar tam idarəolunan yarımkeçirici cihazların əsasında yerinə yetirilirlər (bağlayıcı GTO-tiristorları, yaxud bipolyar İGBT-tranzistorları). Avtonom invertorun İGBT-tranzistorlarda üçfazlı körpü sxeminə uyğun olaraq, o giriş tutum süzgəcindən C_ϕ, altı İGBT-tranzistorlardan V1-V6, qarşılıqlı-paralel qoşulan əks cərəyan diodlarından D1-D6 ibarətdir.

Ventillərin V1-V6 ardıcıl çevrilməsi nəticəsində verilən idarə sistemin alqoritminə yuğun olaraq, sabit giriş gərginliyi U_B dəyişən düzbucaq-impuls çıxış gərginliyinə çevrilir. İdarə olunan V1-V6 açarlardan asinxron mühərrikin cərəyanının aktiv hissəsi axır, D1-D6 diodlardan isə-cərəyanın reaktiv hissəsi.

Gərginlik invertorlarının tətbiqi, sxem qəlizləşmədən yüksək energetik göstəricilərin alınmasına və sinusoidala yaxın olan çıxış cərəyanlarının təmin olunmasına imkan yaradır. Bu müasir elektrik intiqalında avtonom gərginlik invertorunun geniş tətbiqini təmin edir. İGBT tipli tranzistorların əsasında inteqral texnologiyası üzrə yerinə yetirilən tranzistor və diod – tranzistor modullarını xüsusi qeyd etmək lazımdır. Açar rejimlərində kiçik güc itgiləri, işçi gərginlik və cərəyanların böyük qiymətləri, bu modulların qoşulma və açılmalarının az müddətliyi, və eləcədə onların paralel işdə istifadə olunma imkanı yüksək tezlik komutasiyalı yarımkeçirici açarları olan güclü və kompakt çevirici qurğuların yaranmasına imkan verir.

Tənzimlənən elektrik intiqalının əsasında enerjiyə qənaət edən bir çox texnologiyalar sənayenin müxtəlif sahələrinə və nəqliyyat vasitələrində daha geniş tətbiq olurlar. Son

zamanlar tezlik çevrilməsi üçün daha çox güc açarları öz tətbiqini tapmışlar – İGBT modulları. Cəld çeviricilərin sxemlərində İGBT əsasında idarəedici güc açarların istifadəsi elektrik enerjisinin yüksək tezliklərdə çevrilməsinə, çeviricilərdə ümumi itgilərin azalmasına, müasir idarə sistemlərinin tətbiqinə, qurğunun kütlə və qabaritlərin azalmasına imkan yaradır. İGBT modulları əksər hallarda tranzistorlar yarıkörpü sxemi üzrə birləşən invertorlarda istifadə olunurlar. İGBT modulların (şək.3) konstruksiya və parametrləri daima təkmilləşdirilir, dayanıqlıq və modulların istismarın sərt şəraitlərində və qəza rejimlərində xidmət müddəti artır[5].

Şək.3 İGBT modulun ümumi görünüşü.

Şək.4-də İGBT-in qoşulma və açılma təsviri göstərilmişdir. Yükün induktiv xarakterinə görə İGBT qoşulduqda cərəyan impulsu yaranır, açıldıqda isə - gərginlik impulsu.



Şək.4. V_{GE} - bağlı -emitter gərginliyi; I_c – kollektor cərəyanı.

NƏTİCƏ

Tezlik çeviricisi (TÇ) müasir dəyişən cərəyan elektrik intiqallarının əsas elementidir. Mühərrikin moment və fırlanma tezliyinin sürətinin idarəsi-tənzimlənən elektrik intiqalının iki əsas həlledici məsələləridir. İntiqalın normal funsiyası üçün mühərrikin moment və cərəyanının buraxıla bilən qiymətlərində məhdudlaşdırılması lazımdır.Bir çox sənaye mexanizmlərin texnoloji rejimləri müxtəlif iş mərhələlərində işçi orqanın hərəkətini müxtəlif sürətlə tələb edir, bu da elektrik intiqalın mexaniki və ya sürətinin elektrik tənzimlənməsilə təmin olunur. Ona görə də sürət tənzimlənməsinin dəqiqliyinə və diapazonuna olan tələbləri, intiqalın tətbiq sahəsindən asılı olaraq, geniş həddlərdə dəyişə bilər.

1. *Белов М.П.* Технические средства управления и автоматизации. Учебное пособие 2009.
2. *Позднев А.Д. и др.* Электромагнитные и электромеханические процессы в частотно-регулируемом асинхронном электроприводе. Чебоксары. ЧувашскийУниверситет.2000.
3. *Rahul Dixit, Bindeshwar Singh, Nupur Mittal.* Adjustable speeds drives. Review on differ ent invertertopologies - //Sultanpur, India. International Journal of Reviews in Compu ting, 2012.
4. *Marian P. Kazmierkowski, Leopoldo G. Franquelo, Jose Rodriquez, Marcelo A.Perez, Jose I. Leon* "High-Peromance Motor Drives". // IEEE Industrial Electronicsd, vol.5.
5. *Kərimzadə G.S., Muxtarov C.B.*Mancanaq dəzgahın asinxron elektrik intiqalının tezlik çeviricisi ilə işlənməsi. //AATM Xəbərləri. ADNSU. 2019.

АСИНХРОННЫЙ ЭЛЕКТРОПРИВОД С ПРЕОБРАЗОВАТЕЛЕМ ЧАСТОТЫ

КЕРИМЗАДЕ Г.С., МУХТАРОВ Дж.Б.

Применение регулируемого электропривода обеспечивает энергосбережение и позволяет получать новые качества систем и объектов. За счет регулирования какого-либо технологического параметра обеспечивается значительная экономия электроэнергии. Если это станок, то можно плавно регулировать скорость подачи или главного движения. От использования преобразователей частоты особый экономический эффект дает применение частотного регулирования на объектах. Как известно, регулирование частоты вращения исполнительных механизмов можно осуществлять при помощи различных устройств (резисторами, дополнительно вводимыми в статор или ротор, электромеханическими преобразователями частоты,статическими преобразователями частоты). Наиболее совершенными устройствами управления асинхронным электроприводом являются статические преобразователи частоты.

Ключевые слова: асинхронный электропривод, частотное регулирование, технологический параметр, система, объект, регулирование скорости, энергетические показатели, подводимое напряжение, преобразователь частоты.

ASYNCHRONOUS ELECTRIC DRIVE WITH A FRECUENCY CONVERTER

KERIMZADE G.S., MUXTAROV C,B.

The use of an adjustable electric drive provides energy saving and allows you to get new quality systems and objects. By regulating any process parameter, significant energy savings are achieved. If it is a machine, you can smoothly adjust the feed rate or the main movement. From the use of frequency converters, the special economic effect is the use of frequency regulation at the facilities. As is well known, the rotational speed of the actuators can be controlled using various devices (resistors, additionally introduced into the stator or rotor, electromechanical frequency converters, static frequency converters). The most advanced control devices for asynchronous electric drive are static frequency converters.

Keywords:asynchronous electric drive, frequency regulation, technological parameter, system, object, speed control, energy indicators, input voltage, frequency converter.

UOT 62.83.52

GƏMİ KRAN QURĞULARINDA TƏTBİQ EDİLƏN YARIMKEÇİRİCİ ÇEVİRİCİLƏRİN MÜHAFİZƏSİNİN XÜSUSİYYƏTLƏRİ

SULTANOV E.F., MƏMMƏDOV E.M.

Azərbaycan Dövlət Dəniz Akademiyası,
Az1000 Bakı ş. Z.Əliyeva küç.18
elshen_sultanov@mail.ru, emilmemmedoglu@gmail.com

Məqalədə gəmi kran qurğularının intiqallarında tətbiq edilən yarımkeçirici çeviricilərin mühafizələrinin xüsusiyyətlərinə baxılmış və onların gəmi kranelektrik intiqallarında tətbiq olunmasınınüstünlüyü qeyd edilmişdir.

Açar sözlər: *gəmi, kran qurğusu, elektrik intiqalı, tezlik çeviricisi, yarımkeçirici çevirici, mühafizə.*

Giriş. Gəmi yükqaldırıcı mexanizmlərinin elektrik intiqalları, gəmi şəraitində istismar tələblərinə cavab verən xüsusiləşdirilmiş elektrik maşınlarından və aparatlarından istifadə etməklə hazırlanırlar. Bir çox kran gəmilərində, yükqaldırıcı mexanizmlərin elektrik mühərrikinin gücü elektrik stansiyasının bir generatorunun gücünə bərabər və ya ona yaxın olur. Yükqaldırıcı bucurğadların və kranların elektrik intiqallarına verilən tələblərin əsası yüksək məhsuldarlığın təmin edilməsidir [1].

Gəmi yükqaldırıcı mexanizmlərin elektrik intiqallarına verilən tələblər, Dəniz Registrinin Qaydaları, müvafiq idarələrin standartları və normaları ilə müəyyənləşdirilir. Bütün tərtib olunan tələblərin yerinə yetirilməsi, birinci növbədə, mexanizmlərin yüksək məhsuldarlığını təmin etmək, yük əməliyyatlarını daha effektiv təşkili və onların təhlükəsiz istismarı üçün təklif olunmuşdur.

Avtomatlaşdırma sistemi də daxil olmaqla, elektrik avadanlığının texniki istismarına dair ümumi tələblər gəmi elektrik avadanlığının texniki istismar qaydalarını təyin edir. Bu qaydalara əməl etməklə və elektrik avadanlığına daimi qulluq göstərməklə yükqaldırıcı mexanizmlərin elektrik intiqallarının etibarlı və təhlükəsiz işləməsini (və müasir tələblərə cavab verməsini) təmin etmək olar [1, 2].

Məlum olduğu kimi gəmi kran qurğuları əsas olaraq gəminin yükləmə rejimində işləyirlər buna görə də tezlik çeviricilərinin yarımkeçirici elementləri sıradan çıxdıqda gəmi qəzaya uğraya bilər. Bu səbəbdən də *gəmi kran qurğularında tətbiq edilən* yarımkeçirici cihazlardan hazırlanmış tezlik çeviriciləri üçün cərəyanı işlədicilərdən ayırman xüsusi mühafizə qurğuları hazırlanır, bu məqsədlə onların bəzilərinə baxılmışdır.

Əsas hissə. Yarımkeçirici çeviricilərin istismarı zamanı onlarda qəza rejiminin yaranmaması mümkünsüzdür. Yarımkeçirici çeviricilərin qəza rejimi nasazlığın baş verdiyi yerdən asılı olaraq xarici və daxili qəza qruplarına bölünür. Daxili qəza rejimi əsas olaraq güc sxeminin bir və bir neçə ventil qrupunda ventillərin elektrik və istilikdən (qızma temperaturun normadan artıq yüksəlməsi) deşilməsi zamanı baş verə bilir. Bundan əlavə çeviricinin enerji verdiyi işlədicinin (cərəyan yaxud gərginliyə görə artıq yüklənməsi, və yaxud onda qısa qapanma prosesinin yaranması da yarımkeçirici çevirici üçün qəza rejiminin yaranmasına səbəb ola bilir[2, 3].

Yarımkeçirici çeviricinin əsas qəza rejimlərinə aiddir:

- işlədici yaxud yarımkeçirici cihazı elektrik şəbəkəsinə qoşduqda yaratdığı xarıci qısa qapanma qəzası
- yarımkeçirici ventillərin müxtəlif səbəblərdən (köhnəlmədən, müxtəlif deffektlərdən, şəbəkəyə düzgün qoşulmamasından, artıq yüklənmədən və s.) yaratdığı daxili qəza;

- invertorun çevrilməsi yəni invertorun ventillərinin düzgün işləməməsindən sabit cərəyan dövrəsində yaranan qısa qapanma;
- reversiv çeviricilərdə və yaxud (bilavasitə) bir bəndi tezlik çeviricisində bərabərləşdirici cərəyanların yaranması.



Şək.1.Üç fazalı körpü sxemli düzləndiricinin qəza rejimləri.

1- dəyişən cərəyan şinlərində qısa qapanma
2- tiristorun deşilməsi
3 - sabit cərəyan şinlərində qısa qapanma
4 - işlədiciyə yaxın yerdə qısa qapanma

Şəkil 1-də istismar zamanı körpü sxem düzləndiricisində tez-tez baş verən qəzalar göstərilmişdir.

Düzləndiriciyə qoşulan şinlərdə qısa-qapanma baş verdikdə düzləndiricinin çıxışa verdiyi sabit gərginlik azalar və yaxud da yox (üç fazalı qısa-qapanma) olar (1-ci hal), amma tiristorların birinin deşilməsi düzləndiricidə daxili qısa-qapanma yaradır hansı ki, düzləndiricini yararsız hala düşməsinə səbəb ola bilər (2-ci hal).

Düzləndiricinin çıxışında yaranan qısa-qapanma (3-cü hal) nəticəsində də, düzləndirici qısa zamanda sıradan çıxa bilir.

İşlədicidə və yaxud onun yaxınlığında qısa-qapanma yarandıqda (4-cü hal), qısa-qapanma dövrəsində böyük induktivlik olduğu üçün qısa-qapanma cərəyanı nisbətən gecikmə ilə artaraq, öz qərarlaşmış qiymətinə çatar.

İnvertorda yaranan qəza hadisəsi əsas olaraq idarə sisteminin düzgün işləməməsindən və yaxud tristorlardan birinin və ya bir neçəsinin deşilməsindən yaranır. Göstərilən səbəblərdən invertorun bir qolunda iki ventil eyni zamanda cərəyan keçirir bu hadisə invertor üçün ən ağır qəza sayılır[3, 4].



Şək.2.İnvertorun qısa-qapanması nəticəsində yaranan qəza rejimi sxemi.

Şəkil 2-də iki ventildən keçən qısa-qapanma cərəyanı qırıq xətlərlə göstərilmişdir. Belə qısa-qapanma nəticəsində invertorun ventillərindən keçən cərəyanın qiyməti nominala nisbətən 30÷40 dəfə arta bilər. Əlbəttə, cərəyanın bu qədər artması dövrədə olan cihaz və qurğuların ciddi zədələnməsi ilə nəticələnə bilər.

Qısa-qapanma cərəyanının artma sürətini və qiymətini azaltmaq üçün invertorun sabit cərəyan dövrəsinə böyük induktivli reaktor qoşulur.

Qeyd etmək lazımdır ki, avtonom invertorda da şəbəkədən idarə edilən invertorda olduğu kimi eyni xarakterli qəza rejimləri baş verir[4, 5].

Yarımkeçirici çeviricilərin gərginliyin sıçrayışla artmasına, artıq yüklənməyə və ya qısa-qapanma cərəyanının qiymətinə eləcə də onun artma sürətinə çox həssas olduqları üçün onların mühafizəsinə ciddi tələblər verilir hansı ki, bəzən mövcud komutasiya mühafizə aparatları tərəfindən yerinə yetirilməsi mümkün olmur.



Şək.3.Tez işləyən əriyən qoruyucular vasitəsilə üç fazalı düzləndiricinin mühafizəsinin sxemi.

Şəkil 3-də üç fazalı körpü sxemli yarımkeçirici düzləndiricinin tez işləyən əriyən qoruyucular vasitəsilə mühafizəsi göstərilmişdir. Qoruyucular aşağıdakı funksiyaları yerinə yetirmək üçün quraşdırıla bilər:

- xarici qısa-qapanmadan mühafizə üçün dəyişən cərəyan xətlərində
- daxili qısa-qapanmadan mühafizə üçün yarımkeçirici ventillərdə ardıcıl olaraq
- işlədicilərdə və onların birləşdirici naqillərində yaranan qısa-qapanmadan mühafizə üçün sabit cərəyan dövrəsinin çıxışında qurulur.

Qeyd etmək lazımdır ki, *gəmi kran qurğularında, val-generator qurğularında* və avar elektrik qurğularının tərkibinə daxil olan yarımkeçirici çeviricilərin əriyən qoruyucular vasitəsilə mühafizə olunmasına icazə verilmir, çünki göstərilən mühafizə (GES-nın) cərəyansız qalması və gəminin idarəedilməsinin itirilməsinə səbəb ola bilər. Belə qurğularda, çeviricini qəza rejiminin baş verməsi zamanı mühafizə etmək üçün yarımkeçirici mühafizə qurğularından istifadə edilir.

